Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 61 (8084) ŞƏNBƏ, 16 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## İlham Əliyev lider qətiyyəti ilə Azərbaycana beynəlxalq etimad qazandıran siyasət yürüdür

Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumunun budəfəki mövzusu "Dünyanın yeni xarici siyasəti"dir. 3-cü gündür davam edən VII forumun panel iclaslarında bu mövzu ətrafında qlobal siyasətin dəyişməsində böyük güclərin rolu, davamlı inkişaf çağırışları, təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı, müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu və digər mühüm məsələlər müzakirə edilir.

### Forumun intellektual potensialı yüksəkdir

Tədbirdə 55 ölkədən 500-dən çox nümayəndənin, o cümlədən hazırda fəaliyyətdə olan 5 prezidentin, 1 baş nazirin, 2 baş nazirin müavininin, 42 sabiq dövlət başçısı və baş nazirlərin, çoxsaylı analitiklərin, jurnalistlərin, gənc liderlərin iştirakı Qlobal Bakı Forumunun beynəlxalq gündəlikdə duran aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biri olduğunu təsdiqləyir.

Digər tərəfdən, forumun bu tərkibdə keçirilməsi onun intellektual potensialından xəbər verir. Çünki müzakirə olunan məsələlərlə bağlı danışanlar, təkliflər və təşəbbüslər irəli sürənlər bu gün ayrı-ayrı dövlətlərə rəhbərlik edən prezidentlər, vaxtilə prezident və ya baş nazir postları tutmuş dövlət xadimləri, hazırda tanınmış siyasi mərkəzlərdə çalışan politoloqlardır. Bu baxımdan forumun intellektual potensialı kifayət qədər əhatəli və zəngindir.

*"Bizim forumumuzun intellektual səviyyəsi ildən-ilə artır. Bu tədbirdə lap əvvəldən iştirak edən insanlar kimi biz, əlbəttə ki, bunu söyləyə bilərik. Bu gün bu forumun dünya xəritəsində çox mühüm yeri var və forum hələ də inkişaf prosesini yaşayır"* - deyə Prezident İlham Əliyev bu barədə bildirib.

### Dövlət maraqlarını layiqincə təmin edən siyasi kurs

Forumun müzakirə mövzularına gəldikdə isə, qeyd etməliyik ki, ölkənin inkişaf səviyyəsini, nüfuzunu, dünyada ona göstərilən ehtiramı və digər bu kimi əsas xüsusiyyətlərini xarakterizə edən cəhətlərdən biri yürüdülən siyasətin məzmun və mahiyyətidir. Sürətlə dəyişən dünya nizamı hər bir dövlətdən çevik və milli maraqlara uyğun xarici siyasət həyata keçirilməsini tələb edir. Təbii olaraq bütün ölkələr dünya birliyinin subyekti olaraq həm özünün milli maraqlarına cavab verən, həm də müstəqil siyasət həyata keçirmək istəyir. Lakin qlobal şəraitə uyğunlaşmaq və milli maraqlara söykənən xarici siyasət yürütmək hər dövlətə nəsib olmur.

Təcrübə göstərir ki, bəzi dövlətlər dünyada nəyin baş verib-verməməsindən asılı olmayaraq nəinki müstəqil xarici, daxili siyasət belə həyata keçirə bilməkdən məhrumdurlar. Belə ölkələrin hakimiyyətlərinin beynəlxalq məsələlərlə bağlı mövqeləri xarici siyasi mərkəzlərlə razılaşdırılır. Bəzən isə beynəlxalq münasibətlərdəki təbəddülatlar, enerji və milli təhlükəsizlik məsələləri, sivilizasiyalararası dialoqun təhdidi ölkələri həyata keçirdikləri siyasəti kənar təsirlərlə uzlaşdırmağa, müəyyən diktələri qəbul etməyə məcbur edir.

*Ardı 5-ci səh.*

# Azərbaycan və İran prezidentlərinin iradəsi sayəsində iki ölkə arasında əməkdaşlıq bütün sahələrdə genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Azərbaycan-İran hökumətlərarası birgə komissiyasının həmsədri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda Azərbaycan-İran hökumətlərarası komissiyasının toplantısının səmərəli keçəcəyinə və müzakirə olunan məsələlərin öz həllini tapacağına əminlik ifadə olundu.

Görüşdə nəqliyyat, energetika, sənaye, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, səhiyyə və digər sahələrlə bağlı müzakirə olunan məsələlərin gözəl nəticələr verdiyi vurğulandı, eyni zamanda, ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında danışıldı, Neftçalada müasir avtomobil zavodunun işə düşməsindən məmnunluq ifadə olundu. Həmçinin "Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəaliyyətə başlaması mühüm hadisə kimi dəyərləndirildi. Prezident İlham Əliyev bu yaxınlarda Qəzvin-Rəşt dəmir yolunun açılışı münasibətilə təbriklərini çatdırdı.

Görüşdə elektroenergetika sahəsində də görülmüş işlər yüksək qiymətləndirildi və bu sahədə əməkdaşlığın həm ikitərəfli, həm çoxtərəfli formatda inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı.

Qəbula görə minnətdarlığını bildirən Fərhad Dejpəsənd İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını və Novruz bayramı münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Həsən Ruhani və bütövlükdə İran Azərbaycana dost və qardaş ölkə kimi münasibət göstərir. Fərhad Dejpəsənd Prezident İlham Əliyevin ikitərəfli münasibətlər haqqında söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı.

Görüşdə qeyd olundu ki, Azərbaycan və İran prezidentlərinin iradəsi sayəsində iki ölkə arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına və Novruz bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını və bayram təbriklərini İran Prezidentinə çatdırmağı xahiş etdi.

## Əbdüləziz Osman əl-Tuveycri, ISESCO-nun baş direktoru:

# "İlham Əliyevin rəhbərliyi və müdrik siyasəti ilə Azərbaycan uğurla inkişaf edir, çiçəklənir, bütün dünyada mövqeləri möhkəmlənir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.

AZƏRTAC xəbər verir ki, ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Azərbaycana gəlməsindən və VII Qlobal Bakı Forumunda iştirak etməsindən məmnunluq hissi keçirdiyini bildirdi. O, bu tədbirin beynəlxalq əməkdaşlığa dəyərli töhfə verdiyini dedi. Əbdüləziz Osman əl-Tuveycri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi və müdrik siyasəti ilə Azərbaycan uğurla inkişaf edir, çiçəklənir və ölkəmizin təkcə regionda deyil, bütün dünyada mövqeləri gündən-günə möhkəmlənir.



Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını ifadə edərək, Əbdüləziz Osman əl-Tuveycriyə VII Qlobal Bakı Forumunda iştirakına görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı VII Qlobal Bakı Forumunun qlobal məsələlərin səmərəli müzakirəsi üçün mühüm tədbirə çevrildiyini dedi. ISESCO ilə əməkdaşlığa toxunan Prezident İlham Əliyev bildirdi ki, bu təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi dövlətimiz və xalqımız tərəfindən yüksək dəyərləndirilir.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Turki Al Faysal: "Bakı qədim və müasir arxitekturanı özündə birləşdirən çox gözəl məkandır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Səudiyyə Ərəbistanı Krallığının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysal qəbula görə minnətdarlığını bildirdi. O, Bakıda keçirilən VII Qlobal Forumun əhəmiyyətinə toxunaraq, həmin tədbirdə çıxış etdiyini məmnunluqla qeyd etdi və eyni zamanda, bu tədbirin beynəlxalq əməkdaşlıq sahəsində özünəməxsus yer tutduğunu dedi. Qonaq forumun Bakı şəhərində təşkil olunmasını düzgün bir seçim kimi dəyərləndirdi və eyni zamanda bildirdi ki, Bakı qədim və müasir arxitekturanı özündə birləşdirən çox gözəl bir məkandır.

Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd edərək, bu forumun fəaliyyətinin genişlənməsinin və mühüm beynəlxalq tədbirə çevrilməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı Turki Al Faysal ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, həmin görüşlər zamanı səmərəli müzakirələrin aparıldığını bildirdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə dəstək verməsinin əhəmiyyəti qeyd olundu.

# Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsəddir

## Nazirlər Kabineti parlamentə illik hesabatını verdi

Martın 15-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyətinə dair illik hesabatı dinlənilib.



Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, Konstitusiyaya uyğun olaraq Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında həyata keçirilən dinamik dəyişikliklər Milli Məclisə təqdim edilən hesabatda dəqiq və dolğun ifadəsini tapıb.

Sədr bildirib ki, 2018-ci il ölkəmizin sosial-iqtisadi həyatında əlamətdar il olub. Nazirlər Kabinetinin iclasında da dövlət başçısının qeyd etdiyi kimi, 2018-ci il dərin iqtisadi islahatlar ili olub və bu islahatların nəticələrini indi hər kəs görür. Həyata keçirilən iqtisadi islahatların nəticəsidir ki, dünyada mürəkkəb proseslərin cərəyan etdiyi bir şəraitdə iqtisadiyyatımızın dayanıqlığı təmin olunub, iqtisadiyyatın inkişafına yeni təkan verilməsi üçün möhkəm əsaslar yaranıb. Onu da qeyd etmək lazımdır ki, cari ilin əvvəlindən minimum əməkhaqqının, əmək pensiyalarının, bütün növ sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması, xarici valyutada götürülmüş kreditlərin artan hissəsinin ödənilməsi barədə qərarın qəbul edilməsi məhz əvvəlki illərdə, xüsusən 2018-ci ildə həyata keçirilən tədbirlər nəticəsində mümkün olub.

"Əlamətdar haldır ki, aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin reallaşdırdığı bu islahatları yüksək qiymətləndiriblər. Dünya Bankının "Doing Business-2019" hesabatında biznes mühitinin əlverişliliyinə görə ölkəmiz əvvəlki illərlə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə yüksəlib.

*Ardı 3-cü səh.*

*Cefri Saks, BMT Baş katibinin xüsusi müşaviri:*

# “Forumda səmərəli müzakirələr aparıldı”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, BMT Baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saksı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Cefri Saksa VII Qlobal Bakı Forumunda iştirakına görə təşəkkürünü bildirdi.

Cefri Saks VII Qlobal Bakı Forumunun təşkilinə görə minnətdarlığını ifadə etdi və forumda məmnunluqla iştirak etdiyini vurğuladı. O, forumun əhəmiyyətinə toxunaraq orada regional və digər məsələlərlə bağlı səmərəli müzakirələr aparılmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda təmsil olunan ölkələrin və iştirakçıların sayının artdığını və bu forumun mühüm beynəlxalq tədbirə çevrildiyini vurğuladı.

Görüşdə ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı qlobal layihələr, o cümlədən “Şərq-Qərb nəqliyyat dəhlizi”, enerji siyasəti barədə danışıldı.

## Yeni Zelandiyanın Baş naziri zati-aliləri xanım Casinda Ardernə

Hörmətli xanım Baş nazir!

Kraystçerç şəhərində məscidlərə silahlı hücum nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu amansız terror əməlindən son dərəcə hiddətlənir, terrorizmin bütün forma və təzahürlərinə qarşı beynəlxalq birliyin səylərini qətiyyətlə dəstəkləyirik.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yeni Zelandiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 mart 2019-cu il*

## Moskvada MDB İqtisadi Şurasının 81-ci iclası keçirilib

Martın 15-də Moskvada MDB İqtisadi Şurasının 81-ci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu iştirak ediblər.

Türkmənistanın sədrliyi ilə keçən iclasda MDB ölkələrinin informasiya təhlükəsizliyinin təmin edilməsi strategiyasının layihəsi təsdiq olunub. İnformasiya cəmiyyətində hüquq pozuntuları ilə mübarizəyə, MDB ölkələrinin informasiya təhlükəsizliyinin təmin edilməsinə yönələn sənəd MDB Xarici İşlər Nazirləri Şurası və MDB Hökumət Başçıları Şurasına təqdim olunacaq.

İclasda elektron ticarətlər sahəsində istehlakçıların hüquqlarının müdafiəsi, MDB ölkələri gömrük orqanlarının intellektual mülkiyyət obyektlərinin hüquqlarının müdafiəsi sahəsində qarşılıqlı fəaliyyəti, azad ticarət zonasının yaradılması haqqında malların gömrük rəsmiləşdirilməsi və onlara gömrük nəzarəti qaydası haqqında Sazişə dəyişikliklər edilməsi kimi məsələlər müzakirə olunub.

Bundan əlavə, tədbirdə bir sıra maliyyə və təşkilati məsələlər nəzərdən keçirilib.

MDB İqtisadi Şurasının növbəti iclası bu il iyunun 21-də keçiriləcək.

## “Con Batçelor Şou” radio proqramı Azərbaycanla bağlı silsilə verilişlər hazırlayıb






ABŞ-ın məşhur və geniş dinləyici auditoriyasına malik olan “Con Batçelor Şou” (John Batchelor Show) radio proqramı Azərbaycanla bağlı silsilə verilişlər hazırlayıb.

AZƏRTAC xəbər verir ki, “Con Batçelor Şou”nun ölkəmizdə səfərdə olan jurnalistləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşüblər. Görüşdə Əli Həsənov Azərbaycanın tarixi, mədəniyyəti, beynəlxalq əlaqələri, multikultural dəyərləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm layihələr barədə məlumat verib.

Verilişlərdə Azərbaycanda gedən inkişaf prosesləri, bu günlərdə keçirilən VII Qlobal Bakı Forumu, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verilir.

“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev, “The Washington Times” qəzetinin müxbiri Monika Krouli, tanınmış amerikalı vəkil, Birləşmiş Ştatların mərhum prezidenti Riçard Niksonun nəvəsi Kristofer Nikson Koks “Con Batçelor Şou”nun jurnalistlərinə müsahibə veriblər.

Tural Gəncəliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün tarixindən, səbəb və nəticələrindən, ölkəmizin ərazisinin 20 faizinin işğal edilməsindən, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsindən söhbət açıb. O, münaqişənin həlli üçün Azərbaycanın ərazi bütövlüyünün bərpasının, qaçqınların və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının zəruriliyini qeyd edib.

Monika Krouli deyib ki, Azərbaycan cəmi iki onillik ərzində iqtisadi möcüzə yaratmağa nail olub. Bu isə uzaqgörən dövlət siyasəti nəticəsində mümkün olub. “The Washington Times” qəzetinin müxbiri həmçinin əlavə edib ki, Azərbaycan öz inkişafı ilə regiona və dünyaya iqtisadi nümunə olmaq yolunda qətiyyətlə irəliləyir.

Kristofer Nikson Koks isə Qlobal Bakı Forumu ilə bağlı təəssüratlarını bölüşüb. O, Qlobal Bakı Forumunun əhəmiyyətli bir tədbir olduğunu bildirib, müzakirə olunan mövzuların önəmini qeyd edib.

“Con Batçelor Şou” gündəlik həyatda aktual olan beynəlxalq hərbi, siyasi və iqtisadi mövzulara həsr olunur, ABŞ-da federal ABC Radio Şəbəkəsinə daxil olan müxtəlif ştat və şəhərlərdə çoxsaylı radiokanal tərəfindən həm canlı, həm də audioyazı formasında geniş yayımlanır. Həftənin hər günü yayımlanan bu proqram ABŞ-da milyonlarla dinləyici auditoriyasına malikdir.

# Mənzillər təqdim olunub



Martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 3 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: “Bu gün dövlətimiz tərəfindən sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlıq imkanları məhdudlaşmış şəxsə yeni mənzillər təqdim edilir. Bu, dövlətimiz tərəfindən vətən qarşısında öz vəzifələrini və vətənpərvərlik borclarını layiqincə yerinə yetirmiş insanlara göstərilən qayğının daha bir ifadəsidir. Çünki mənzil təminatı hər bir insanın rahat yaşayışı və əsas qayğılarının həll olunması deməkdir.

Ali Məclisin Sədri vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə mənzillə təmin olunanlara təşəkkürünü bildirib, onları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib və yeni mənzillərində firavan həyat arzulayıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış edərək deyib ki, muxtar respublikada müvafiq kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara minik avtomobillərinin verilməsi, tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı 4 ailəyə mənzillər, 1 nəfərə isə minik avtomobili təqdim olunub. Həyata keçirilən tədbirlərin davamı olaraq bu gün müvafiq kateqoriyalı 4 şəxsə yeni mənzillər təqdim olunur. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən yüksək diqqətə və qayğıya görə minnətdarlıq edib, əhalinin sosial müdafiəsi sahəsində qarşıya qoyulan vəzifə və tapşırıqların icrasında səylə çalışacaqlarını bildirib.

Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim edib, müharibə iştirakçıları və onların ailə üzvləri ilə xatirə şəkli çəkdirib.

Azərbaycan Vətən Müharibəsi iştirakçısı Samir Sadıxovun valideyni Əmanət Musayeva çıxış edərək deyib: “Dövlətimiz tərəfindən müharibə iştirakçılarına, şəhid ailələrinə hərtərəfli qayğı göstərilir. Mənim övladım Samir Sadıxov da vətənimizin müdafiəsində sağlamlığını itirib. Valideyn kimi fəxr edirəm ki, övladım vətən yolunda şərəflə xidmət edib. Bir neçə il bundan əvvəl övladıma avtomobil təqdim edildi. Bu gün - Novruz bayramı ərəfəsində isə yeni mənzil verilir. Göstərilən bu qayğı bizə ikiqat bayram sevinci yaşadır. Qürur duyuram ki, mən bu ölkənin vətəndaşıyam. Ailəmiz bundan sonra da vətənimizin inkişafına öz töhfəsini verəcəkdir”.

Əmanət Musayeva göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib, Novruz bayramı münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan şəhərində yerləşən iki və üçotaqlı mənzillər təmir olunaraq lazımi şərait yaradılıb. Mənzillə təmin olunanlara xalça hədiyyə edilib.

## Fransa Milli Assambleyasının saytında yerləşdirilən məlumatda Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşdən bəhs edilir




Fransa Milli Assambleyasının rəsmi saytında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu qurumun sədri Rişar Ferranla görüşü barədə məlumat yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransa ilə əlaqələrinin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyan bu səfər zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın Milli Assambleyanın sədri Rişar Ferran ilə görüşündə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Milli Assambleyanın sədri parlamentlərarası əlaqələrin inkişafında maraqlı olduqlarını bildirib. İkitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmindən danışılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, səfər zamanı Fransa rəsmiləri ilə keçirilən görüşlər, aparılan danışıqlar ikitərəfli siyasi, iqtisadi, mədəni və elmi sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və konkret layihələrin həyata keçirilməsi ilə bağlı geniş perspektivlər açıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın bu səfəri Fransanın Azərbaycanla münasibətlərə böyük önəm verdiyini, ölkəmizlə əməkdaşlıqda maraqlı olduğunu bir daha təsdiqləyir.

## Prezident İlham Əliyevin fərmanına əsasən Səbail rayonunda çoxmənzilli binanın sakinlərinə çıxarışlar təqdim olunub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” 2019-cu il 19 fevral tarixli Fərmanı ilə istismara qəbul olunmamış, lakin tikintisi başa çatdırılmış 400-ə yaxın binanın sakinlərinin problemlərinin həlli istiqamətində konkret addımlar atılır.

Fərman istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və Azərbaycan Respublikasının sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədini daşıyır. Bu məsələ 2019-cu il yanvarın 1-dək tikilən, tam təhvil verilən, istismara qəbul edilməyən və faktiki olaraq sakinlərin yaşadıqları binalara şamil olunur.

AZƏRTAC xəbər verir ki, martın 15-də Bakının Səbail rayonunun Abbasquluzadə küçəsi, 17 ünvanında “İdeal” MTK tərəfindən inşa edilən hündürmərtəbəli, çoxmənzilli binanın sakinlərinə çıxarışların təqdim olunması Prezident İlham Əliyevin məlum fərmanının icrası istiqamətində atılan növbəti addımdır. Binanın sakinlərinə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən verilən çıxarışlar onların, sözün əsl mənasında, böyük sevincinə səbəb olub.

Mərasimdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev jurnalistlərə müsahibəsində qeyd edib ki, Prezident İlham Əliyev vətəndaşları narahat edən bütün problemlərin aradan qaldırılması üçün mütəmadi olaraq addımlar atır. Həmin addımlar müxtəlif fərman və sərəncamlarda öz təsdiqini tapır. Bu istiqamətdə görülən işlərdən biri də cari il fevralın 19-da dövlət başçısı tərəfindən imzalanmış fərmandır. Bu fərman həm də istismara qəbul olunmayan binaların rəsmi olaraq istismara qəbulunu nəzərdə tutur. Bu gün həmin binalardan beşi artıq rəsmi olaraq istismara verilib. Bu, həmin binaların sakinləri üçün çox yaxşı xəbərdir.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, bu gün çıxarış verilən binada təqribən 561 mənzil var. Bu mənzillərin 50 faizindən çoxu istismar olunur. Fərmanın da əsas məqsədi uzun müddət istismar edilən binalarda vətəndaşlar tərəfindən sənədləşmə prosesinin tamamlanması və rəsmi olaraq dövlət tərəfindən tanınmasıdır.



F.Mustafayev vurğulayıb ki, Əmlak Məsələləri Dövlət Komitəsi həmin fərmanın icrasına əsasən səyyar çıxarış xidməti təşkil edib. Burada vətəndaşların ərizələri qəbul edilir.

Qeyd olunub ki, fərmanda iki ay ərzində Fövqəladə Hallar Nazirliyi, “Azərişıq” ASC, “Azəriqaz” İB və “Azərsu” ASC tərəfindən yoxlamaların aparılması nəzərdə tutulub. Bu müddət ərzində FHN binaların dayanıqlılığını, lift təsərrüfatının olub-olmamasını və yanğından mühafizə məsələlərini yoxlayır və onlar haqqında rəy tərtib edir. Həmin rəy iki gün ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və eyni zamanda, yerli icra hakimiyyətlərinə göndərilir. Nəticədə binalar istismara qəbul olunur.

“Ümumilikdə hazırlanan siyahıdakı binalarda 70 minə yaxın istismar edilməyən mənzil var. Həmin mənzillərin 70 faizi artıq məskunlaşıb. Prezident İlham Əliyev tərəfindən həyət evləri ilə bağlı da tapşırıq verilib. Biz hazırda bu məsələləri araşdırırıq”, - deyən Prezident Administrasiyasının rəsmisi diqqətə çatdırıb ki, dövlət başçısı vətəndaşları narahat edən problemləri aradan qaldırır. Biz bu məsələlərlə bağlı işçi qrupu yaradaraq yaxın zamanda Prezidentə öz təkliflərimizi verəcəyik.

Tədbirdə iştirak edən Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rafiq Cəlilov bildirib ki, komitə vətəndaşlardan sənədlərini mobil ofisləri vasitəsilə qəbul edir. Ən qısa zamanda həmin mənzillərin vətəndaşların adına qeydiyyatını keçirib hazır çıxarışları da qısa müddətdə elə bu ünvanda onlara təqdim edəcəyik. Vətəndaşların arzusundan asılı olaraq, çıxarışları elektron şəkildə də hazırlaya bilərik. Biz mobil ofislərimiz vasitəsilə vətəndaşlara yaşadıqları ünvanlarda xidmət göstərəcək və çıxarışları hazırlayıb onlara təqdim edəcəyik.

Binanın sakinləri Əmlak Məsələləri Dövlət Komitəsinin səyyar xidmət avtobusuna daxil olur, qısa zamanda çıxarışlarını alıb dövlət başçısına minnətdarlıqlarını ifadə edirdilər. Vurğulayırdılar ki, çıxarışsız mənzillərdə yaşamaq onlar üçün problemlər yaradırdı. Prezidentə minnətdarıq ki, bizim bu çətinliyimizə son qoydu.

## Bədən Tərbiyəsi və İdman Akademiyasında təhlükəsizlik orqanlarının 100 illiyinə həsr olunan tədbir keçirilib

Zəngin və mənalı ömrünün 25 ilini dövlət təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş ümummilli lider Heydər Əliyevin 1997-ci il martın 23-də imzaladığı sərəncamla hər il martın 28-i Azərbaycan Respublikasının təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

Dövlət Təhlükəsizliyi Xidmətindən (DTX) AZƏRTAC-a bildiriblər ki, Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi və peşə bayramı ərəfəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tədbir keçirilib.

Tədbirdə DTX-nin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, olimpiya və dünya çempionları, idman ictimaiyyətinin nümayəndələri, akademiyanın müəllim və tələbə kollektivi iştirak edib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək, ulu öndərin abidəsi önünə gül dəstələri düzüblər.

Tədbir akademiyanın akt zalında davam etdirilib. Dövlət himni səsləndirildikdən sonra dünya şöhrətli siyasi xadim Heydər Əliyevin vətənpərvərlik və peşəkarlıq irsindən, eləcə də Azərbaycan təhlükəsizlik orqanlarının inkişafındakı xidmətlərindən, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövlət təhlükəsizliyi orqanlarına diqqət və qayğısından bəhs edən sənədli film nümayiş olunub.

Sonda Bakı şəhəri Tofiq Quliyev adına 12 saylı 11 illik musiqi məktəbinin şagirdlərinin ifasında Azərbaycan xalq mahnıları, o cümlədən ulu öndər Heydər Əliyevin sevimli mahnıları, dünya və milli musiqi klassiklərimizin əsərlərindən təqdim edilən hissələr tədbir iştirakçılarında xoş ovqat yaradaraq alqışlarla qarşılanıb.

# Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsəddir

## Nazirlər Kabineti parlamentə illik hesabatını verdi



















*Əvvəli 1-ci səh.*

Ölkəmizin kredit reytinqinə görə də mövqeyi xeyli möhkəmlənib. Digər beynəlxalq reytinq agentliklərinin hesabatlarına görə də Azərbaycanın mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb", deyə parlamentin sədri bildirib.

Oqtay Əsədov deyib ki, 2018-ci il dövlətimizin müasir tarixində xüsusi yerə layiq olan bir sıra layihələrlə yadda qalıb. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması, aqrar sahəyə dövlət dəstəyinin artırılması istiqamətində ciddi addımlar atılıb. Ölkənin valyuta ehtiyatları 3 milyard dollar artaraq ilin sonuna 45 milyard dollara bərabər olub. Xarici dövlət borcu 22,8 faizdən 19 faizə düşüb. Ötən ilin uğurlarından biri də xarici ticarət dövriyyəsində 8 milyard dollarlıq müsbət saldonun yaranması olub.

Sədr diqqətə çatdırıb ki, Nazirlər Kabinetinin illik hesabatlarının parlamentdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır. Həmişə olduğu kimi, ötən il Milli Məclisdə hesabatın müzakirəsi zamanı irəli sürülmüş təkliflər hökumət tərəfindən diqqətlə araşdırılıb. Milli Məclisin deputatlarının təkliflərinin icra vəziyyəti ilə bağlı görülmüş işlərə dair ətraflı məlumat bizə təqdim edilib.

"Hesab edirəm ki, bu gün keçirəcəyimiz müzakirələr də faydalı olacaq, hökumətin fəaliyyətinin səmərəliliyinin daha da artmasına öz töhfəsini verəcəkdir", - deyə Oqtay Əsədov söyləyib.

Sonra Baş nazir Novruz Məmmədov Nazirlər Kabinetinin 2018-ci ildəki fəaliyyətinə dair hesabatla çıxış edib.

### Baş nazir Novruz Məmmədovun çıxışı

Hörmətli sədr.

Hörmətli deputatlar.

2018-ci il Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında böyük nailiyyətlərlə, əlamətdar tarixi hadisələrlə zəngin olmuşdur. Ötən il Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi təntənə ilə qeyd edilmişdir. Aprel ayında keçirilən növbəti prezident seçkilərində müdrik xalqımız ən düzgün seçimini edərək İlham Əliyevi yenidən dövlət başçısı seçmişdir. Bu seçimi ilə Azərbaycan Respublikasının vətəndaşları milli maraqlara uyğun aparılan siyasət nəticəsində ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyi, dayanıqlı və dinamik inkişafı, xalq-iqtidar birliyini dəstəklədiyini növbəti dəfə nümayiş etdirmişlər. Prezident seçkilərindən sonra dövlət başçısı hökumətin yeni tərkibini müəyyənləşdirmiş, qarşıda duran strateji vəzifələri və hədəfləri bəyan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə aparılan və yeni dövrün çağırışlarına cavab verən praqmatik xarici siyasət, beynəlxalq münasibətlər sistemindəki mövcud gərginliklərə baxmayaraq, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə və Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına zəmin yaratmışdır.

Hesabat ilində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin başlıca prioriteti olaraq qalmış və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyi bir daha dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətinə çatdırılmışdır.

İkitərəfli və çoxtərəfli formatlarda qəbul edilən sənədlərdə dövlətimizin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək ifadə edilmişdir. Bu baxımdan Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" adlı sənəd düşünülmüş sistemli fəaliyyətin əsas tərkib hissələrindən biri kimi çox əhəmiyyətlidir.

Ötən ilin may ayında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə reallaşan "Cənub qaz dəhlizi"nin açılışı Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin vacib rolunu bir daha nümayiş etdirdi. Bunun ardınca Türkiyədə dövlət başçılarının iştirakı ilə nəhəng TANAP layihəsinin rəsmi açılış mərasimi özünün geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə bərabər, Azərbaycan-Türkiyə qardaşlığının və tərəfdaşlığının növbəti parlaq nümayişi oldu.

Azərbaycan Respublikası Prezidentinin bilavasitə rəhbərliyi altında Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı aparılan uzunmüddətli və gərgin danışıqlar 2018-ci ilin avqustunda uğurla yekunlaşdı və dövlətimizin maraqlarını özündə əks etdirən konvensiya imzalandı.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin keçən ilin yekunlarına dair iclasındakı nitqində hökumətin fəaliyyətini dərindən və hərtərəfli təhlil edərək, əldə olunan nəticələri yüksək qiymətləndirmiş, 2018-ci ilin dərin iqtisadi islahatlar ili olduğunu bildirmişdir. Belə ki, ölkədə makroiqtisadi sabitlik təmin olunmuş və iqtisadi artım 1,4 faiz təşkil etmişdir. Qeyri-neft sektorunda artım 1,8 faiz olmuş, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır. Əsas kapitala yönəldilmiş 17,2 milyard manat vəsaitin 11 milyard manatdan çoxu və ya 65,5 faizi qeyri-neft sektorunun payına düşmüşdür və sevindirici haldır ki, bu vəsaitin 69,7 faizini daxili sərmayələr təşkil etmişdir.

2018-ci ildə inflyasiya cəmi 2,3 faiz olduğu halda, əhalinin gəlirləri nominal ifadədə 9,2 faiz artmışdır. Bunu müsbət hal kimi dəyərləndirmək lazımdır. Ölkənin valyuta ehtiyatları 3 milyard ABŞ dolları artaraq 45 milyard dollar olmuşdur. Xarici borcun 3 faizə yaxın azaldılaraq 19 faizə endirilməsi isə ölkə iqtisadiyyatının dayanıqlığını nümayiş etdirir.

Ötən il icmal büdcənin gəlirləri 31,4 milyard manat, xərcləri isə 26,3 milyard manat olmuş və ümumi daxili məhsula nisbətdə 6,4 faiz büdcə artıqlığı (profisit) əldə edilmişdir.

Dövlət büdcəsinin gəlirləri 22,5 milyard manat təşkil edərək, təsdiq olunmuş proqnozu 360 milyon manat üstələmişdir.

Dövlət büdcəsinin və icmal büdcənin gəlirləri bütün sosial öhdəliklərin, əsas dövlət proqramlarının və prioritet layihələrin tam maliyyələşdirilməsinə imkan yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətin mahiyyətində əhalinin aztəminatlı təbəqəsinin rifahının davamlı olaraq yüksəldilməsinin dayandığı hamıya məlumdur. Bu məsələyə hesabat ilində də xüsusi önəm verilmişdir. Dövlət büdcəsinin xərclərinin 31,7 faizi və ya 7,2 milyard manatı sosialyönümlü xərclərin payına düşmüşdür ki, bu da 2017-ci illə müqayisədə 7,6 faiz çoxdur. Əmək pensiyalarının artırılması 1,2 milyon pensiyaçını və ya onların 94 faizini əhatə etmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 6,2 faiz, yaşa görə pensiyanın orta aylıq məbləği isə 6,7 faiz artmışdır.

Özünüməşğulluq proqramının əhatə dairəsinin il ərzində 6,5 dəfə genişləndirilməsi 5 mindən çox ailənin və ya 25 min nəfərə yaxın insanın maddi vəziyyətinin yüksəldilməsinə imkan vermişdir.

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına əsasən, 11 min manat birdəfəlik ödənişin hesabat ilində verilməsinə başlanılmış və ilin sonuna 34 milyon manat vəsait ödənilmişdir. Əlillərə və şəhid ailələrinə 626 mənzil verilmiş, 265 nəfər imtiyazlı şəxs pulsuz minik avtomobili ilə təmin olunmuşdur.

Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Yasamal yaşayış kompleksində 29 binanın, 1 məktəbin, 1 uşaq bağçasının tikintisi yekunlaşdırılaraq, sosial mənzillərin satışına başlanılmışdır.

Bundan əlavə, respublikanın regionlarında 1530 yerlik 18 uşaq bağçasının və körpələr evinin, valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunlar üçün Abşeron rayonunun Masazır qəsəbəsində yaşayış kompleksinin inşası tamamlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, əhalinin həssas təbəqəsi olan məcburi köçkünlərin sosial problemlərinin həllinə xüsusi diqqət yetirilmiş, bu məqsədlərə ayrılmış maliyyə vəsaiti hesabına salınmış və bütün lazımi infrastruktur yaradılmış qəsəbələrdə 5900 ailə yeni mənzillərlə təmin edilmişdir.

Hörmətli deputatlar, ölkə iqtisadiyyatının əsas sahəsi olaraq qalmaqda davam edən neft-qaz sektorunda çox mühüm işlər görülmüşdür. 2018-ci ildə 38,7 milyon ton neft, 19,2 milyard kubmetr qaz hasil edilmişdir. Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma və müasirləşdirmə tədbirləri davam etdirilmiş, maye qazdoldurma məntəqəsi və illik istehsal həcmini 62 faizdən çox artırmağa imkan verəcək yeni bitum qurğusu istismara verilmişdir.

2018-ci ilin iyul ayında Sumqayıt Kimya Sənaye Parkında polipropilen zavodu işə salınmış və ilin sonunadək burada 14 min ton məhsul istehsal edilmişdir. Sənayenin inkişafına və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramlarının icrası çərçivəsində Sumqayıt Kimya Sənaye Parkında karbamid zavodunun inşası başa çatdırılmışdır. Ümumi dəyəri təxminən 800 milyon avro təşkil edən həmin müəssisədə ildə 600-650 min ton azot gübrəsi istehsal ediləcəkdir. Ölkənin daxili tələbatını ödəməklə yanaşı, zavodun məhsullarının həm də dünya bazarlarına ixrac edilməsindən respublikaya hər il 160 milyon ABŞ dolları məbləğində vəsaitin daxil olması gözlənilir.

Ötən il qardaş Türkiyədə istismara verilmiş və illik istehsal gücü 10 milyon ton olan "Star" neft emalı zavodu ilk beş il müddətində Azərbaycan iqtisadiyyatına ildə 850 milyon ABŞ dolları, sonrakı dövrlərdə isə hər il 600 milyon ABŞ dollarından çox gəlir gətirəcəkdir.

Bütün dünyada enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi kimi qəbul olunur. Bu prizmadan yanaşdıqda, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ilin yekunlarına həsr olunan iclasında vurğuladığı kimi, 2018-ci ildə "Azərbaycan" İstilik Elektrik Stansiyasında baş vermiş qəza bu sahədə ciddi problemlərin və çatışmazlıqların olduğunu göstərdi. Dövlət başçısının tapşırığı ilə məsələ qısa bir vaxtda araşdırıldı və enerji sisteminin reabilitasiya planının həyata keçirilməsinə başlanıldı. İlkin mərhələdə daxili imkanlar və dövlət büdcəsindən ayrılmış 140 milyon manat məbləğində maliyyə vəsaiti hesabına 230 meqavat güc bərpa edildi.

Mövcud tədbirlər planına uyğun olaraq 2018-ci ildə əsaslı yenidənqurmadan sonra Mingəçevir Su Elektrik Stansiyası, Lerik rayonunda elektrik stansiyası və "Yeni Yaşma" Külək Elektrik Parkı istismara verilmişdir.

Enerji sisteminin şəbəkə təsərrüfatının inkişafı ilə əlaqədar görülmüş işlər də təqdirəlayiqdir. Bu dövrdə 110 kilovoltluq 11, 35 kilovoltluq 27 yarımstansiyada tikinti və yenidənqurma işləri aparılmış, 123 kilometr kabel, 7500 kilometrə yaxın hava xətləri çəkilmiş və ya təmir olunmuş, 970-dən çox müxtəlif transformator əsaslı təmir edilmiş, 390 komplekt transformator məntəqəsi quraşdırılmış və digər tədbirlər həyata keçirilmişdir.

Sahənin ümumi inkişafının daha da sürətləndirilməsi məqsədilə hüquqi prosedurların sadələşdirilməsini və şəffaflığın təmin edilməsini nəzərdə tutan normativ hüquqi aktlar qəbul edilərək qanunvericilik bazası təkmilləşdirilmişdir.

Dövlət başçısının uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq, sənayenin inkişafına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramının icrası artıq öz real bəhrəsini verməkdədir. Müasir texnologiyalara və geniş ixrac imkanlarına malik sənaye parklarının və sənaye məhəllələrinin yaradılması siyasətinə xüsusi önəm verilməsini həm ölkənin sənaye potensialının gücləndirilməsi, həm də dördüncü sənaye inqilabı istiqamətində atılmış düşünülmüş addımlar kimi səciyyələndirmək lazımdır. Belə ki, 2018-ci ildə ölkədə yaradılmış və ümumilikdə 55 müasir müəssisəni özündə birləşdirən 5 sənaye parkında və 4 sənaye məhəlləsində 41 rezident qeydiyyata alınmışdır və onlardan 21-i artıq fəaliyyət göstərir. Mingəçevir Sənaye Parkına 85 milyon ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. İllik istehsal gücü 20 min ton olan iki müəssisədə pambıq mahlıcdan iplik istehsal ediləcəkdir.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının ənənəvi sənaye sahələri ilə yanaşı, yeni yaradılan kosmik, müdafiə, gəmiqayırma və digər sahələrdə də dinamik inkişaf müşahidə olunur. Belə ki, 2018-ci ilin sentyabr ayında orbitə buraxılmış ikinci telekommunikasiya peyki - "Azərspeys-2" bu sahədə xidmətlərin və yayımın əhatə dairəsinin genişləndirilməsini, xidmətlərin çeşidinin və satış həcminin artırılmasını təmin edəcəkdir. Nazirlər Kabineti orbitə çıxarılmış peyklərin fəaliyyətindən ölkəyə milyonlarla dollar valyuta daxil olacağını nəzərə alaraq "Azərbaycan Respublikasında 2019-2022-ci illərdə Yerin peyk vasitəsilə məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair Dövlət Proqramı"nın layihəsini hazırlayaraq dövlət başçısına təqdim etmiş və sənəd ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq olunmuşdur.

İl ərzində Bakı Gəmiqayırma Zavodunda Xəzər Dəniz Gəmiçiliyinin sifarişi əsasında iki bərə gəmisinin və iki neft tankerinin tikintisi davam etdirilmişdir.

Ölkə rəhbərinin tapşırığı ilə xalçaçılıq sənətinin yenidən təşəkkül tapması və Azərbaycan xalçasının əvvəlki şöhrətinin bərpa olunması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Ölkənin 11 rayonunda fəaliyyət göstərən xalçaçılıq müəssisələrində il ərzində 5,5 min kvadratmetrdən artıq milli ornamentlərlə zəngin olan xalça toxunmuşdur. Bu müəssisələrin yun iplik üzrə idxaldan asılılığının aradan qaldırılması üçün Sumqayıt Kimya Sənaye Parkında yunəyirici-boyaq fabrikinin inşasına başlanılmışdır.

Hamıya məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin əsas qida məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə və bu yolla ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə necə böyük əhəmiyyət verir. Buna nail olmaq məqsədilə aqrar sahədə ardıcıl olaraq dövlət dəstəyi tədbirləri davam etdirilmiş, mütərəqqi irriqasiya sistemləri və suvarma şəbəkəsi qurulmuş, 189 min hektardan artıq otlaq sahəsi əkin dövriyyəsinə cəlb olunmuşdur. Eyni zamanda, respublikanın 33 rayonunda 51 aqroparkın yaradılması üzrə intensiv işlər aparılır. Əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına, habelə buğda və çəltik səpininə, mineral gübrələrin və pestisidlərin güzəştli şərtlərlə satışına, kənd təsərrüfatı texnikasının eyni qaydada lizinqə verilməsinə və digər tədbirlərin maliyyələşdirilməsinə dövlət büdcəsindən 296 milyon manatdan çox vəsait ayrılmışdır.

Ölkədə baramaçılığın və ipəkçiliyin, çəltikçiliyin, çayçılığın, sitrus meyvəçiliyinin və şərabçılığın inkişafına dair dövlət proqramları qəbul olunmuş, arıçılıq sahəsində subsidiya müəyyən edilmiş, gübrələrin satış qiymətinə tətbiq edilən güzəştlər artırılmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalçıları güzəştli qiymətlərlə, ümumilikdə 105,6 milyon manat dəyərində müxtəlif təyinatlı mineral gübrələrlə və 3,6 milyon manat dəyərində pestisidlərlə təmin edilmişdir.

Bunlarla yanaşı, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi, nasos stansiyalarının, magistral su kanallarının və digər obyektlərin tikintisinin maliyyələşdirilməsi üçün müxtəlif mənbələrdən ümumilikdə 451,5 milyon manat məbləğində vəsait cəlb edilmişdir. Bu vəsait hesabına 568 kilometrdən artıq suvarma kanallarının, kollektor-drenaj şəbəkəsinin tikintisi, yenidən qurulması və bərpası işləri aparılmış, 52 min hektardan artıq sahədə torpaqların su təminatı yaxşılaşdırılmış, 40 min hektardan artıq yeni torpaq sahələrinə suvarma suyunun verilməsi təmin edilmişdir. Əkin və həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 314 subartezian quyusu qazılmışdır.

Yuxarıda qeyd etdiyim irimiqyaslı işlər və icra olunan digər tədbirlər nəticəsində ölkədə əvvəlki illə müqayisədə 4,6 faiz artımla 7 milyard manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Burada ixracın həcminin 35,0 faiz artaraq, 590 milyon dollara çatmasını xüsusilə vurğulamaq istərdim.

Nəticə etibarilə bütün bunlar ölkə əhalisinin əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin müsbət dinamikasında öz əksini tapmışdır.

Ölkənin nəqliyyat infrastrukturunun genişləndirilməsi və müasirləşdirilməsi dövlət başçısının apardığı strateji iqtisadi siyasətin prioritet istiqamətlərindən hesab olunur. Bu səbəbdən görülmüş işlərin, həyata keçirilmiş nəhəng layihələrin respublikanın ümumi inkişafındakı rolunu qeyd etmək istərdim. 2018-ci ildə ölkənin avtomobil yollarının tikintisinə və saxlanılmasına 1,7 milyard manat vəsait yönəldilmişdir. İl ərzində ümumi uzunluğu 2 min kilometrdən çox avtomobil yolları tikilmiş və ya təmir olunmuş, 25 yolötürücüsü, 32 körpü və 4 tunel inşa edilmişdir. Diqqətçəkən məqamlardan biri də odur ki, bu yolların 1260 kilometrə yaxını 800 mindən artıq əhalinin yaşadığı kəndlərarası avtomobil yollarıdır. Əhalinin rahatlığı ilə bərabər, bu yollar bölgələrdə sosial infrastrukturun, sahibkarlığın və turizmin inkişafına da öz töhfəsini verərək iqtisadi canlanmaya zəmin yaratmışdır.

"Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin bir hissəsi olan Ələt-Astara-İran İslam Respublikası avtomobil yolunun Astaraya qədər olan hissəsinin tikintisinin tamamlanması da əhəmiyyətli hadisədir.

Hesabat ilində Azərbaycanın dəmir yollarının ümumilikdə 220 kilometrlik hissəsində əsaslı təmir işləri aparılmışdır. O cümlədən Bakı-Böyük-Kəsik dəmiryol xəttində 82,6 kilometr baş yol əsaslı təmir edilmiş, xaricdən 56 müxtəliftəyinatlı lokomotiv alınaraq ölkəyə gətirilmişdir.

Dövlət başçısının müvafiq tapşırığına uyğun olaraq, regionlarda turizmin inkişafına xidmət edəcək "Ləki-Qəbələ" dəmiryol layihəsinin birinci mərhələsində artıq 14 kilometr yol çəkilmişdir və hazırda işlər davam etdirilir. Ən yüksək dünya standartlarına cavab verən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Azərbaycanın tranzit ölkə kimi dünyadakı və regiondakı mövqeyinin möhkəmlənməsində əhəmiyyəti böyükdür. Ötən il burada 1,8 milyon ton yük qəbul etmək imkanına malik terminal istismara verilmiş, 2 yedək gəmisi və 6 portal kranı alınaraq limanın maddi-texniki bazası daha da gücləndirilmişdir.

Bu gün Xəzər Dəniz Gəmiçiliyinin balansında ümumi yük tutumu 550 min tondan artıq olan 260 gəmi və 11 üzən vasitə vardır. Hesabat ilində 2 təchizat-yedək gəmisi alınmış, 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını tutumlu iki bərə tipli gəminin və iki tankerin tikintisi davam etdirilmişdir.

Respublikanın mülki hava nəqliyyatında sərnişin və yük daşımaları müvafiq olaraq 1,7 və 17,4 faiz artmış, "Embraer-190" tipli 2 yeni hava gəmisi alınaraq mövcud təyyarə parkı genişləndirilmişdir.

Dövlət büdcəsinin vəsaiti hesabına Bakı Metropoliteninin vaqon parkı genişləndirilmiş, "Sahil" stansiyasının əsaslı təmiri başa çatdırılmış, yeni metro stansiyalarının tikintisi aparılmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və artıq dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti bir daha göstərir ki, aparılan sosial siyasətin mərkəzində ölkə vətəndaşının maraqlarının təmin edilməsi və onun problemlərinin həlli dayanır. Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə 2018-ci ildə Mingəçevir, İmişli və Şəki şəhərlərində regional "ASAN xidmət" mərkəzləri tikilərək fəaliyyətə başlamışdır. Bununla da belə mərkəzlərin sayı ümumilikdə 17-yə, əhaliyə göstərilən xidmətlərin sayı isə 315-ə çatdırılmışdır.

Hörmətli deputatlar, ölkə iqtisadiyyatının inkişafında və əhalinin həyat səviyyəsinin yüksəldilməsində əhəmiyyətli yer tutan Regionların sosial-iqtisadi inkişafı üzrə III Dövlət Proqramının icrası hesabat ilində uğurla tamamlanmışdır. Proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi sayəsində yeni istehsal və emal müəssisələri, sosial obyektlər tikilərək istifadəyə verilmiş, çoxsaylı infrastruktur layihələri reallaşdırılmış, genişmiqyaslı quruculuq və abadlıq işləri aparılmışdır.

Belə ki, 2014-2018-ci illər ərzində regionlarda 1600 kilometrdən artıq respublika, 3100 kilometrdən artıq yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və ya təmir olunmuş, 157 körpü, keçid, tunel və yol qovşağı inşa edilmiş və ya yenidən qurulmuşdur.

Dövlət başçısının şəxsi təşəbbüsü ilə hələ bir neçə il bundan əvvəl əhalinin keyfiyyətli içməli su təminatının yaxşılaşdırılması və kanalizasiya sistemlərinin yenidən qurulması proqramı çərçivəsində ölkənin 61 rayon mərkəzində beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş kreditlər və dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına genişmiqyaslı işlərə başlanılmışdır. Nəticədə 38 şəhərin su təminatı məsələsi öz həllini tapmışdır və hazırda 12 şəhərdə işlər davam etdirilir.

İl ərzində 10 min 590 kilometr elektrik verilişi xətti, 4000 kilometrə qədər müxtəlif gərginlikli kabel xətti, 152 yarımstansiya, 1600-dən artıq transformator məntəqəsi tikilmiş və əsaslı təmir edilmişdir. Eyni zamanda, 27 min kilometrdən artıq qaz xətti çəkilmiş və ya yenidən qurulmuş, 903 yaşayış məntəqəsi qazla təchiz edilmişdir. Bütün bunlar ölkədə qazlaşdırılmanın səviyyəsinin hesabat ilinin sonuna 95,7 faizə çatdırılmasına imkan vermişdir.

Proqram çərçivəsində regionlarda 800-dən artıq məktəb və uşaq bağçası, 130-a yaxın tibb müəssisəsi tikilmiş və ya yenidən qurulmuş, 300-dən çox yeni telefon stansiyası quraşdırılaraq və rekonstruksiya edilərək istismara verilmiş, 61 poçt binası tikilmişdir.

Təhsil, səhiyyə, turizm, idman və digər sahələrdə əldə edilən nailiyyətləri aparılan uğurlu humanitar siyasətin məntiqi nəticəsi kimi dəyərləndirə bilərik. Təkcə bir faktı qeyd edim ki, dövlət büdcəsindən təhsilin inkişafına yönəldilən xərclər son 15 ildə 8 dəfədən çox artaraq 2,1 milyard manat təşkil etmişdir.

Dövlət başçısının tapşırığı ilə ucqar kəndlərdə mövcud qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi məqsədilə 8120 yerlik 137 modul tipli məktəb istifadəyə verilmişdir. Ölkə üzrə 5 yaşlı uşaqların 75 faizi məktəbəqədər hazırlığa cəlb olunmuşdur. Humanitar sahədə əvəzsiz xidmətləri olan Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakı şəhərində ali məktəb tələbələri üçün 800 yerlik yataqxana kompleksi inşa edilmişdir. Nazirlər Kabinetinin müvafiq qərarları ilə iri sənaye mərkəzlərində və regionlarda yerləşən peşə təhsili müəssisələrinin bazasında 24 peşə təhsil mərkəzi yaradılaraq sistemin təkmilləşdirilməsi və səmərəli fəaliyyəti təmin edilmişdir.

Səhiyyənin inkişafında əsas diqqət tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni texnologiyaların, müayinə və müalicə üsullarının geniş tətbiqinə yönəldilmişdir. İl ərzində ən yüksək səviyyədə inşa olunmuş və müasir avadanlıqlarla təchiz edilmiş Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Quba rayon və Naftalan şəhər mərkəzi xəstəxanaları istifadəyə verilmiş, 47 tibb müəssisəsində təmir-tikinti işləri aparılmışdır.

Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi, turizmin daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən Dövlət Turizm Agentliyi yaradılmışdır. Görülən tədbirlər və atılan addımlar ölkəyə gələn xarici turistlərin sayının 6 faiz artaraq, 2,8 milyon nəfərə çatmasına əhəmiyyətli təsir göstərmişdir.

2018-ci il gənclərimiz və idmançılarımız üçün də uğurlu il olmuş və sanballı qələbələrlə yadda qalmışdır. Ölkədə 225 yerli, 58 beynəlxalq yarış keçirilmiş, idmanın müxtəlif növləri üzrə yığma komandalarımız 236 beynəlxalq yarışda iştirak etmişdir. Azərbaycan idmançıları dünya, Avropa çempionatlarında, kubok yarışlarında və beynəlxalq turnirlərdə 263-ü qızıl olmaqla, ümumilikdə 753 medal qazanmışlar.

Hesabat ilində ekoloji tarazlığın və bioloji müxtəlifliyin qorunması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi istiqamətində görülən işlər də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ekoloji durumun yaxşılaşdırılması və mövcud yaşıllıqların qorunub saxlanılması məqsədilə yaşayış məntəqələrinin müfəssəl planı hazırlanarkən yaşıllıq salınması üçün nəzərdə tutulan sahənin ölçüləri, adambaşına düşən yaşıllıq sahəsi və yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsinin normaları təsdiq edilmiş, yaşıllıqların uçotunun, kadastrının və monitorinqinin aparılması üçün şəffaf mexanizm yaradılmışdır.

*Ardı 4-cü səh.*

# Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsəddir

## Nazirlər Kabineti parlamentə illik hesabatını verdi

*Əvvəli 3-cü səh.*

İl ərzində ekoloji vəziyyətə və infrastruktura mənfi təsir edən qum-çınqıl yataqlarında qeyri-qanuni fəaliyyət göstərən 97 fiziki və hüquqi şəxs barəsində inzibati tədbirlər görülmüş, təbiətə dəymiş ziyana görə 12,3 milyon manat məbləğində cərimə ödənilmişdir.

Dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya" təsdiq edilmişdir. İl ərzində Bakı şəhərində 500 min tondan artıq tullantı tədarük olunmuş, onun 494 min tonunun yandırılması nəticəsində 162,2 milyon kilovat-saat elektrik enerjisi istehsal edilmişdir.

Hörmətli deputatlar, son illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən normativ hüquqi baza daha da liberallaşdırılmış, sahibkarlara maliyyə dəstəyi mexanizmi təkmilləşdirilmiş, dövlət-sahibkar münasibətləri inkişaf etdirilərək əlverişli rəqabət mühiti yaradılmış, sahibkarlara göstərilən elektron xidmətlərin sayı xeyli çoxalmışdır. Nəticə etibarilə görülən bütün bu işlər özəl sektorun ümumi daxili məhsuldakı payının 84 faizədək yüksəldilməsinə zəmin yaratmışdır.

Ölkə iqtisadiyyatında biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan davamlı islahatlar sayəsində Dünya Bankı tərəfindən hazırlanan və 190 ölkəni əhatə edən "Doing Business-2019" hesabatında Azərbaycan 32 pillə irəliləmiş, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında isə liderlik mövqeyinə yüksəlmişdir. "Doing Business-2019" hesabatının əhatə etdiyi 10 indikatordan 8-i üzrə öz mövqelərini yaxşılaşdıran ölkəmiz dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilmişdir.

Hesabat ilində dövlət dəstəyi sisteminin tərkib hissəsi kimi sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsinə, kənd təsərrüfatı sahəsində çalışanlara subsidiyaların verilməsinə, aqroparkların, biznes-inkubatorların yaradılmasına, ixrac missiyalarının təşkilinə və digər tədbirlərə xüsusi önəm verilmişdir.

Nazirlər Kabinetinin müvafiq qərarları ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilmiş, bu sahibkarlıq subyektlərinin qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması ilə bağlı texniki şərtlərin ödənişsiz verilməsi müəyyənləşdirilmiş, prosedurlar əhəmiyyətli dərəcədə sadələşdirilmişdir.

2018-ci ildə Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına ümumi dəyəri 618 milyon manata yaxın olan layihələrin maliyyələşdirilməsi üçün sahibkarlara 160 milyon manatdan artıq güzəştli kreditlər verilmişdir.

Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə sahibkarlara dövlət büdcəsindən 15,0 milyon manat məbləğində ixrac təşviqi ödənilmişdir.

Hörmətli deputatlar, 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkənin hərbi-sənaye potensialının artırılması, ordu quruculuğunun təkmilləşdirilməsi, Silahlı Qüvvələrin müasir döyüş texnikası və silah-sursatla təmin edilməsi, şəxsi heyətin döyüş əhvali-ruhiyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü fəaliyyət aparılmışdır.

Silahlı Qüvvələrin ən yeni hərbi texnika, o cümlədən yüksək dəqiqliyə malik uzaqmənzilli "Polonez" və "Lora" raket sistemləri, ballistik raketlərə qarşı hava hücumundan müdafiə vasitələri, pilotsuz uçuş aparatları, radioelektron mübarizə qurğuları və digər hərbi texnika ilə təchiz edilməsi diqqət mərkəzində olmuşdur.

Ölkənin Silahlı Qüvvələrinin arsenalında olan hərbi texnikanın və döyüş vasitələrinin Bakı şəhərində keçirilmiş iki möhtəşəm hərbi paradda nümayiş etdirilməsi yuxarıda deyilənlərə əyani sübutdur.

Azərbaycan Ordusunun ötən ilin may ayında Naxçıvan Muxtar Respublikasının Şərur rayonundakı uğurlu hərbi əməliyyatı nəticəsində strateji əhəmiyyətli yüksəkliklər ələ keçirilmiş və 1992-ci ildən düşmənin nəzarətində olan Günnüt yaşayış məntəqəsi işğaldan azad edilmişdir.

2018-ci ildə ölkənin müdafiə sənayesi müəssisələrində 1200 adda ümumi məbləği 250 milyon manata yaxın olan məhsul istehsal edilərək sifarişçilərə təhvil verilmiş, müəssisələrin ixrac imkanları artırılaraq təxminən 120 milyon manat dəyərində hərbi təyinatlı məhsul ixrac olunmuşdur.

Ötən il Bakı şəhərində 29 ölkədən 250-dən çox rəsmi nümayəndə heyətinin və şirkətin iştirak etdiyi "ADEX-2018" 3-cü Beynəlxalq müdafiə sərgisində müdafiə sənayesinin artan imkanları bir daha nümayiş etdirilmişdir.

Hesabat ilində ümumilikdə müdafiə sahəsinə ayrılan vəsaitin məbləği 526,8 milyon manat artırılaraq 3,3 milyard manat təşkil etmişdir. Eyni zamanda, Silahlı Qüvvələrə yardım Fonduna il ərzində cəmiyyətin müxtəlif təbəqələri tərəfindən 8,4 milyon manat məbləğində ianələr daxil olmuş və orada toplanan vəsaitin ümumi məbləği 96,8 milyon manata çatmışdır.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı konseptual xarakterli çıxışında müəyyən etdiyi vəzifələri hökumət özünün fəaliyyət proqramı kimi qəbul edərək, bütün qüvvələrini və imkanlarını bu tapşırıqların icrasına səfərbər etmişdir.

Mərkəzi icra hakimiyyəti orqanlarının və dövlət strukturlarının rəhbərlərinin nəzərinə bir daha çatdırılmışdır ki, qarşıda duran əsas hədəflər Azərbaycan Respublikası Prezidentinin xalqın milli maraqlarına tam cavab verən siyasətinin onun yüksək tələbləri səviyyəsində həyata keçirilməsinə, aparılan çoxşaxəli və sistemli sosial-iqtisadi islahatların daha da dərinləşdirilməsinə nail olmaqdır. Eyni zamanda, ölkə rəhbərinin daim vurğuladığı kimi onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşının və onun sosial rifahının durmadan yüksəldilməsi kimi şərəfli vəzifələrin durduğunu hamı diqqətdə saxlamalıdır.

Təbii ki, Nazirlər Kabinetinin 2018-ci ildəki fəaliyyətini və görülən işləri bir çıxışda tam əhatə etmək mümkün deyildir və ona görə də yığcam şəkildə sizə çatdırmaq istədiyim bunlardan ibarət idi. Bu barədə geniş hesabat isə əvvəlcədən Milli Məclisə təqdim edilmişdir və ümidvaram ki, onunla tanış olmağa imkan tapmısınız və müzakirələrdə fəal iştirak edərək dəyərli təkliflərinizlə ümumi işimizə öz töhfələrinizi verəcəksiniz.

İmkandan istifadə edib qarşıdan gələn gözəl Novruz bayramı münasibətilə hamınızı səmimi qəlbdən-təbrik edir, cansağlığı və xoşbəxtlik arzulayıram. Qoy bu Bahar bayramı ölkəmizə yeni-yeni uğurlar, evlərimizə bol ruzi-bərəkət gətirsin.

Diqqətinizə görə sağ olun.

* * *

Sonra deputatlar hökumətin hesabatına münasibət bildiriblər. Milli Məclis Sədrinin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, deputatlar Elçin Quliyev, Elmira Axundova, Fəzail Ağamalı, Arif Rəhimzadə, Siyavuş Novruzov, Fərəc Quliyev, Əli Hüseynli, Əli Məsimli, Tahir Mirkişili, Musa Qasımlı, Kamilə Əliyeva, Rəşad Mahmudov, Jalə Əliyeva, Ağalar Vəliyev, Tahir Kərimli, İsa Həbibbəyli, Şahin İsmayılov, Cavid Osmanov, Tahir Rzayev, Eldar Quliyev, Çingiz Qənizadə qeyd ediblər ki, hesabatda və Baş nazirin bununla bağlı çıxışında hökumətin fəaliyyəti hərtərəfli və əhatəli təqdim olunub. Hökumətin fəaliyyəti yüksək dəyərləndirilib. Deputatlar, həmçinin qeyd və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Daha sonra Baş nazir Novruz Məmmədov çıxış edərək deyib ki, bizim yolumuz Azərbaycan dövlətçiliyinin əbədi olmasıdır. Bu da bizim üçün ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Biz bu yolla getməliyik. Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsədimiz olmalıdır. Düşünürəm ki, bizim hamımız, bütün təsisatlar buna nail olmaq üçün daha səylə çalışmalıdırlar.

Siz çox maraqlı, faydalı təkliflər verdiniz. Bu təkliflərin bir çoxu ilə bağlı artıq iş görülür. Siz görülən işlərlə bağlı vaxtaşırı məlumat alacaqsınız. Bilirsiniz ki, Prezident İlham Əliyev ilin əvvəlindən bəri vətəndaşları narahat edən bir sıra məsələlərin həlli ilə bağlı çox mühüm fərmanlar və sərəncamlar imzalayıb. Siz də çıxışlarınızda bu yöndə bir sıra təkliflər verdiniz. Əlbəttə, sizin təklifləriniz də nəzərə alınacaq. Məlumdur ki, Azərbaycanın sürətli inkişaf yolu ilə irəliləməsində Milli Məclisin də böyük rolu vardır. Sizə uğurlar arzu edirəm.

Müzakirələrdən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyətinə dair illik hesabatı səsə qoyularaq məqbul hesab edilib.

# ADA Universiteti "Təmiz ölkəm" ekoloji layihəsinə start verib

Martın 15-də ADA Universitetində bu ali təhsil ocağının və "Coca-Cola" şirkətinin birgə təşkilatçılığı ilə VII Bahar Gənclik Festivalı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, "Coca-Cola" şirkətinin nümayəndələri, tələbələr iştirak ediblər.

Festival çərçivəsində ADA Universiteti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Coca-Cola" Fondu və "AzEkol" şirkətinin birgə əməkdaşlığı ilə "Təmiz ölkəm" layihəsinə start verilib.

Tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edən ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev bildirib: "ADA Universiteti "Coca-Cola" şirkəti ilə 2012-ci ildən bəri əməkdaşlıq edir. Bizim birgə həyata keçirdiyimiz "Ağac əkək, təbiətə töhfə verək" layihəsi uğurla həyata keçirilib. Layihə çərçivəsində ölkəmizdə ekoloji maarifləndirmə işləri görülüb və 100 minə yaxın ağac əkilib. Bu tədbir vasitəsilə start verdiyimiz "Təmiz ölkəm" layihəsi də ətraf mühitin qorunmasına yönəlib və inanırıq ki, biz yenə də müsbət nəticələr əldə edəcəyik".

"Coca-Cola"nın Qafqaz üzrə kommunikasiya meneceri Elşad Fərzəliyev şirkətin Azərbaycanda ətraf mühitin qorunmasına verdiyi əhəmiyyəti vurğulayıb: "Sosial məsuliyyətli bir şirkət olaraq "Coca-Cola" hər zaman fəaliyyətdə olduğu ölkələrin inkişafı üçün müəyyən işlər görür. Bu ildən etibarən "Coca-Cola" və ADA Universitetinin birgə layihəsi olan "Təmiz ölkəm" layihəsinə start verilir. Ümid edirik ki, bu layihə də ötən layihələr kimi uğurla həyata keçirilərək ölkəmizin ekologiyasının yaxşılaşdırılmasına öz töhfəsini verəcək".

Qeyd olunub ki, "Təmiz ölkəm" layihəsinin əsas məqsədi plastik kütlənin təkrar emalı barədə ictimaiyyət arasında maarifləndirmə işlərinin aparılmasını, plastik butulkaların toplanaraq təkrar emala göndərilməsini təbliğ etməkdir. Layihənin icrası cəmiyyətdə təkrar emal ənənəsinin formalaşdırılması, plastik tullantıların qruplaşdırılması üçün əlverişli platforma rolunu oynayacaq. Layihənin uğurla həyata keçirilməsi üçün Bakının əsas ərazilərində plastik butulkaların toplanması üçün xüsusi konteynerlər yerləşdiriləcək.

Festivalda Novruza həsr olunan sərgi, milli geyimlərimiz, Azərbaycanın müxtəlif xalça məktəblərinin nümunələri, ləziz bayram mətbəxinin şirniyyatları və ilaxır çərşənbənin özünəməxsus adət-ənənələri nümayiş etdirilib. ADA Universitetinin Bayraq meydanında quraşdırılmış və plastik şüşələrdən hazırlanmış nəhəng səməni maketi isə "Təmiz ölkəm" layihəsində "ikinci həyat" qazanmış uğurlu nümunələrdən biridir. Plastik səməni, həm də qədim Novruz adət-ənənəsi ilə müasir ekoloji durumu tərənnüm edir. Festivala qatılmış gənclər öz növbələrində istifadə etdikləri plastik butulkaları Bayraq meydanında yerləşdirilmiş xüsusi qablara ataraq "Təmiz ölkəm" layihəsinə öz dəstəklərini əyani olaraq göstəriblər.

Tədbir Azərbaycanın estrada müğənnilərinin çıxışları ilə davam edib.

# Albaniya Prezidentinə Dövlət İdarəçilik Akademiyasının fəxri doktoru adı verilib

Albaniya Respublikasının Prezidenti İlir Meta Azərbaycana səfəri çərçivəsində martın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) olub.



AZƏRTAC xəbər verir ki, görüşdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov Albaniya Respublikasının Prezidentini akademiyanın kollektivi adından salamlayıb, iki ölkə arasında əməkdaşlıq münasibətlərinə, elm və təhsilin inkişafına, Albaniya üçün kadr hazırlığı prosesinə layiqli töhfələr vermiş ali qonağın Dövlət İdarəçilik Akademiyasına gəlişini önəmli hadisə kimi dəyərləndirib. Elm və demokratiyanın inkişafına layiqli töhfələr vermiş Albaniya Prezidentinin Azərbaycana VII Qlobal Bakı Forumunda iştirak etmək üçün gəldiyini diqqətə çatdıran rektor Urxan Ələkbərov rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında qonağa ətraflı məlumat verib.

Rektor qeyd edib ki, iki ölkə arasında münasibətlər tərəfdaşlığa, ikitərəfli və çoxtərəfli səviyyədə siyasi dialoqa, elmi, iqtisadi, mədəni əməkdaşlığa əsaslanır. Dövlət İdarəçilik Akademiyasının elmi şurası Azərbaycan və Albaniya arasında elm və təhsil sahəsində əlaqələrin inkişafındakı xidmətlərinə görə Prezident İlir Metaya DİA-nın fəxri doktoru adının verilməsi barədə qərar qəbul edib.

Daha sonra DİA-nın humanitar və sosial məsələlər üzrə prorektoru Mehdi Abdullayev iki dövlət arasında ənənəvi dostluq münasibətlərinin qorunmasında, elm və təhsil sahəsində əməkdaşlığın möhkəmlənməsində xidmətlərinə görə Albaniya Respublikası Prezidenti İlir Metaya akademiyanın fəxri doktoru adı verilməsi barədə elmi şuranın qərarını oxuyub.

Ali qonağa DİA-nın fəxri doktoru diplomu, xatirə plaketi, mantiya və hədiyyə olaraq milli ornamentli xalça təqdim edilib.

Albaniya dövlətinin başçısı çıxış edərək DİA-nın fəxri doktoru adına layiq görülməsindən məmnunluğunu bildirib, bu ali təhsil müəssisəsinin kollektivinə uğurlar arzulayıb. O, Azərbaycanın sürətli və davamlı inkişaf yolunda olduğunu, enerji resurslarının səmərəli idarəedilməsinin effektivliyini, ölkəmizin beynəlxalq arenada artan nüfuzunu və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığını xüsusi vurğulayıb.

Albaniya Prezidenti gənclərə tövsiyələrini verib, onların suallarını cavablandırıb.

# Genişmiqyaslı təlimlərin yekununa dair səyyar kollegiya iclası keçirilib




Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin yekunlarına dair Müdafiə Nazirliyinin səyyar kollegiya iclası olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbər heyətinin, birlik və birləşmələrin komandir və qərargah rəislərinin, o cümlədən məsul zabitlərin iştirak etdikləri iclasda nazir, general-polkovnik Zakir Həsənov "Azərbaycan Ordusunun 2019-cu tədris ilinə vəzifələrinin dəqiqləşdirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Təlimlərin nəticələrini təhlil edən müdafiə naziri bildirib ki, qarşıya qoyulan vəzifələr tam icra olunub. Plana uyğun olaraq qoşunlar irimiqyaslı döyüş əməliyyatlarını uğurla yerinə yetiriblər. Təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığı daha da təkmilləşdirilərək yeni səviyyəyə yüksəldilib, qərargahlar qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Nazir komandanlığın təlimə cəlb edilən qoşunları idarəetmə bacarığını və hərbi qulluqçuların döyüş əzmini yüksək qiymətləndirib. General-polkovnik Z.Həsənov keçirilən təlimin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha kollegiya iştirakçılarının diqqətinə çatdırıb.

# *RF XİN:* "Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesinin formatı tərəflərin razılığı əsasında dəyişdirilə bilər"

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesinin formatı tərəflərin razılığı əsasında dəyişdirilə bilər. AZƏRTAC xəbər verir ki, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirilən brifinqdə söyləyib.

O qeyd edib ki, Rusiya, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi danışıqların formatı barədə öz fikrini dəfələrlə söyləyib: bu format tərəflərin razılığı əsasında dəyişdirilə bilər.

M.Zaxarova deyib: "Əgər tərəflər müəyyən mərhələdə Dağlıq Qarabağın danışıqlarda təmsil olunması barədə razılığa gəlsələr, bu məhz tərəflərin qərarı olacaq və biz həmin qərara hörmət edəcəyik. Bu, təkcə bizim mövqeyimiz deyil. "Üçlüyün" digər üzvlərinin mövqeyi də belədir və mən də tövsiyə etmək istərdim ki, həmsədrlərin 9 mart tarixli sonuncu bəyanatına diqqət yetirilsin, həmin bəyanatda Rusiya, ABŞ və Fransanın bu məsələyə yanaşmaları yetərincə dəqiq əks etdirilib".

# Bakıda baş-beyin damarlarının anevrizminin müalicəsinin müasir metodlarına dair treninq keçirilib

Martın 15-də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin dəstəyi ilə Bakıda III Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Simpoziumu başlanıb.

AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək simpoziumun həmsədrləri Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev və Almaniyanın Aaxen Universitet klinikasının eksperimental invaziv neyroradiologiya bölməsinin rəhbəri, tibb elmləri doktoru, professor Anastasios Mpotsarisdir.

Bu simpoziumun əlamətdar cəhəti ondan ibarətdir ki, AFR-də təsis edilmiş Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin üzvlərinin və təsisçilərinin ilk yığıncağı Bakıda keçirilir. Cəmiyyətin prezidenti həmvətənimiz, Köln Universitetinin həkim-radioloqu, tibb elmləri doktoru Nuran Abdullayevdir.

Martın 15-də beynəlxalq simpozium çərçivəsində "Zəfəran hospital" klinikasında baş-beyin damarlarının anevrizminin müalicəsinin Azərbaycanda indiyə qədər tətbiq edilməmiş metodlarının praktikada istifadə olunmasına dair workshop-təlim təqdim edilib.

"Zəfəran hospital" klinikasının baş həkimi Firdovsi Məmmədov tədbirdə çıxış edib. Azərbaycanda səhiyyə sahəsinin ilbəil dinamik inkişaf etməsini vurğulayan baş həkim əmin olduğunu bildirib ki, bu seminar ölkəmizdə radiologiya və neyroradiologiyanın inkişafına töhfə verəcək.

Tədbirdə professor Anastasios Mpotsaris, Gettingen Universitet Klinikasının neyroradiologiya şöbəsinin müdiri Folker Maus, Köln Universitetinin həkim-radioloqu, tibb elmləri doktoru Nuran Abdullayev, Heydelberq Universitetinin professoru Kristof M.Zommer, "Zəfəran hospital" klinikasının invaziv radioloqu Ruslan Əliyev, Respublika Müalicə-Diaqnostika Mərkəzinin radioloqu Ağakişi Yəhyayev məruzələrlə çıxış ediblər.

Natiqlər qeyd ediblər ki, baş-beyin damarlarının anevrizmi diaqnozu qoyularkən xəstə müayinə olunur, ona müvafiq suallar verilir, xəstəliyin anamnezi təhlil edilir, nevroloji müayinə aparılır. Diaqnostikanın instrumental prosedurları: baş-beynin kompüter və maqnit-rezonans tomoqrafiyası, serebral və maqnit-rezonans angioqrafiyası yerinə yetirilir. Qeyd edilib ki, müalicə yalnız cərrahi üsulla aparılır, həkim müalicə taktikasını xəstənin vəziyyətindən və xəstəliyin gedişindən asılı olaraq təyin edir. Bundan əlavə, arterial təzyiq göstəricilərinə nəzarət təmin edilməli, zəruri hallarda pasiyent təzyiqin aşağı salınması üçün preparatlar qəbul etməli, siqaret çəkməkdən imtina etməli, düzgün qidalanmalı, qanda xolesterinin səviyyəsinə nəzarət olunmalıdır.

Tədbirdə Anastasios Mpotsaris, Folker Maus və Nuran Abdullayev baş-beyin damarlarının anevrizminin müalicəsinin Azərbaycanda indiyə qədər tətbiq edilməmiş metodlarının praktikada istifadə olunmasına dair workshop-təlim təqdim ediblər.

Məlumat üçün bildirək ki, çoxprofilli "Zəfəran hospital" klinikası 2016-cı ildən fəaliyyət göstərir. Klinikada tibbi yardımın səmərəli təşkili, tibbi texnologiya proseslərinin düzgün yerinə yetirilməsi, səhiyyə resurslarından optimal istifadə edilməsi sayəsində tibbi xidmətlərin yüksək keyfiyyəti təmin olunur. Klinikanın 20 bölməsində (ürək-damar cərrahiyyəsi, kardiologiya, ümumi cərrahiyyə, travmatologiya və ortopediya, nevrologiya, urologiya, bariatrik cərrahiyyə) Avstriya, Türkiyə, Rusiya və ABŞ-ın məşhur tibb universitetlərində təhsil almış mütəxəssislər çalışır.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə martın 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2018-ci il 22 noyabr tarixində keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 2 saylı Şərur, 7 saylı Ordubad-Culfa, 15 saylı Yasamal birinci, 37 saylı Nizami birinci (Gəncə), 48 saylı Yevlax, 58 saylı Hacıqabul-Kürdəmir, 65 saylı Saatlı-Sabirabad-Kürdəmir, 67 saylı Cəlilabad şəhər, 76 saylı Lənkəran-Astara, 98 saylı Şəmkir şəhər, 109 saylı Balakən və 117 saylı Oğuz-Qəbələ seçki dairələri dairə seçki komissiyalarının tərkində dəyişiklik edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

**QƏRAR №1/1**

## Mərkəzi Seçki Komissiyasının 22 noyabr 2018-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 22 noyabr 2018-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*15.03.2019-cu il*

**QƏRAR №1/2**

## Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

"Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2015-ci il tarixli 554 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1397-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli 877 nömrəli Sərəncamının 2-ci hissəsinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2010-cu il 23 iyul tarixli 15/58-14 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "və "Reklam haqqında"" sözləri çıxarılsın, "qanunlarının" sözü "Qanununun" sözü ilə əvəz edilsin;

1.2. 3.2-ci, 3.13-cü, 4.4-cü bəndlərdə və 6.1.5-ci, 6.1.9-cu yarımbəndlərdə "qərarın" sözü "sərəncamın" sözü ilə əvəz edilsin;

1.3. 6.2.7-ci yarımbənd ləğv edilsin.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 24 avqust 2009-cu il tarixli 23-7 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "və "Reklam haqqında" sözləri çıxarılsın, "qanunlarının" sözü "Qanununun" sözü ilə əvəz edilsin;

2.2. 6.2.7-ci yarımbənd ləğv edilsin.

3. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2005-ci il 4 iyul tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların öz təşəbbüsü ilə deputatlığa namizədliyinin irəli sürülməsi, seçicilərin təşəbbüs qruplarının yaradılması və onlar tərəfindən deputatlığa namizədin irəli sürülməsi qaydaları haqqında Təlimat"ın 1.1-ci bəndində "qərar" sözü "sərəncam" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 27 may 2006-cı il tarixli 27/103 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında seçkilərin (referendumun) keçirilməsi ilə bağlı rəsmi sənədlərin saxlanılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 2.1-ci bəndlərinə "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin.

5. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 iyul tarixli 6/23-1 saylı Qərarı ilə təsdiq edilmiş "Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-ci və 3.5-ci bəndlərdə "elan olunması günündən" sözləri "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən" sözləri ilə əvəz edilsin;

5.2. 3.2-ci bənddə "günündən" sözü "haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən" sözləri ilə əvəz edilsin;

5.3. "3" və "3 a" saylı əlavələrdə "elan edilməsi günündən" sözləri "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-1 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) vəkil edilmiş şəxslərin statusu haqqında Təlimat"ın 1-ci qeyd hissəsinin ikinci abzasının 6-cı və 10-cu sətirlərində "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin.

7. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-4 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) beynəlxalq (xarici) müşahidəçilərin fəaliyyət qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.1-ci bəndə "qərar" sözlərindən sonra "(sərəncam)" sözü əlavə edilsin;

7.2. 2.1-ci bənddə "elan edildiyi gündən" sözləri "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-3 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) yerli müşahidənin aparılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 2.1-ci bəndlərinin birinci cümlələrində "elan" sözü "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 30 dekabr 2008-ci il tarixli 1/141-6 saylı Qərarı ilə təsdiq edilmiş "Referendum üzrə təşviqat qruplarının referendum üzrə maliyyə fondlarına vəsaitin daxil olması, xərclənməsi uçotunun aparılması və hesabatı qaydaları haqqında Təlimat"ın 1.2.5-ci və 1.2.9-cu yarımbəndlərində "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin.

10. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 yanvar 2009-cu il tarixli 1/4-1 saylı Qərarı ilə təsdiq edilmiş "Kütləvi informasiya vasitələri ilə referendumqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"ın 3.4-cü, 3.5-ci, 4.2-ci bəndlərində, 5.1.5-ci, 5.1.10-cu yarımbəndlərində "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin və 5.1.10-cu yarımbəndə "seçkilərin" sözü "referendumun" sözü ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2010-cu il 6 may tarixli 10/49-3 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki fondlarına vəsaitlərin daxil olması, xərclənməsi uçotunun aparılması və hesabatı qaydaları haqqında Təlimat"ın 3.5-ci və 3.9-cu bəndlərində "qərarın" sözü "sərəncamın" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/24 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 2.3-cü bəndinə "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin.

13. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/25 saylı Qərarı ilə təsdiq edilmiş "Dairə seçki komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 2.3-cü bəndinə "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin.

14. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü il tarixli 6/48 saylı Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin seçkilərdə (referendumda) iştirakına dair Təlimat"ın 2.1-ci bəndində "elan olunması günündən" sözləri "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 15 may 2015-ci il tarixli 9/84 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə namizədin gəlirlərinin miqdarı, mənbələri, mülkiyyəti və əmlakları barədə məlumatların təqdim edilməsi Qaydaları"nın 1.2-ci bəndinə "təyin" sözündən sonra "edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc" sözləri əlavə edilsin.

16. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*15.03.2019-cu il*

**QƏRAR №1/3**

## Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 oktyabr tarixli Sərəncamının 2-ci hissəsinin və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2018-ci il tarixli 347 nömrəli Fərmanının 2.3-cü bəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-3 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Namizədə aid tələblər" hissəsinin "b)" bəndi aşağıdakı redaksiyada verilsin:

"seçkilərdə iştirak etmək hüququna malik olması";

1.2. Mətn üzrə "notariat kontoru" sözləri "notariat ofisi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2008-ci il tarixli 6/23-7 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları"nın 1 saylı əlavəsində mətn üzrə "notariat kontoru" sözləri "notariat ofisi" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/29 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin seçicilərə verilməsi qaydası haqqında Təlimat"ın "2 b" və "2 c" saylı əlavələrində "notariat kontoru" sözləri "notariat ofisi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2015-ci il 25 may tarixli 10/87 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nın 1 saylı Əlavəsində mətn üzrə "notariat kontoru" sözləri "notariat ofisi" sözləri ilə əvəz edilsin.

5. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*15.03.2019-cu il*

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC optimallaşdırma işlərini davam etdirir

"AzerGold" QSC istehsalatda əməliyyat proseslərinin optimallaşdırılmasını davam etdirir. Bu tədbirlər çərçivəsində Daşkəsən şəhərində yerləşən 110/35/6 kV-luq yarımstansiyadan Çovdar filiz emalı sahəsinə ümumi uzunluğu 8.9 km təşkil edən, 71 ədəd dayaqdan ibarət olan 35 kV-luq Elektrik Veriliş Xətti (EVX) çəkilib.

Hava xəttində istifadə olunan AS 120 $mm^2$ naqilinin nominal yükgötürmə qabiliyyəti 390 amperə bərabərdir. Yeni xətt elektrik təchizatı xərclərini təxminən 50 faiz azaltmaqla yanaşı, Çovdar yatağının yeraltı (sulfid) istismar mərhələsində elektrik enerjisinə artacaq tələbatı tam ödəmək qabiliyyətindədir. Bu günədək elektrik təchizatı üçün istifadə olunan generatorlar isə ehtiyat elektrik enerjisi mənbəyi kimi istifadə olunacaq.

Qeyd edək ki, "AzerGold" QSC bütün sahələr üzrə mütəmadi olaraq optimallaşdırma işləri həyata keçirir. Belə ki, ötən il ərzində aparılan optimallaşdırma işlərinin nəticəsi olaraq Çovdar filiz emalı sahəsində yerləşən qırma-ələmə sahəsinin filiz emaletmə gücü saatda 100-150 tondan 200-250 tona çatdırılıb. Eyni zamanda, müasir texnologiyaların tətbiqi və optimallaşdırma işlərinin nəticəsi olaraq kimyəvi reagentlərin istifadəsi 20-30 faiz azaldılaraq, qızıl hasilatında 2017-ci ilə nisbətən 33 faiz artıma nail olunub.

***"Azərbaycan"***


# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi inzibati binanın fasadının yuyulması xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29 mart 2019-cu il tarixdə saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**- Dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 (əlaqələndirici şəxs: Tender komissiyası (012 530 29 03)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 300.00 (üç yüz) manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142319**
**Büdcə səviyyəsinin kodu: 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **26 aprel 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **06 may 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 may 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Müstəqil siyasətin qlobal təsdiqi

## İlham Əliyev lider qətiyyəti ilə Azərbaycana beynəlxalq etimad qazandıran siyasət yürüdür

*Əvvəli 1-ci səh.*

Belə dövlətlərdən fərqli olaraq, Azərbaycanın həyata keçirdiyi siyasətin tamamilə müstəqil olması hazırda bütün dünyanın qəbul və etiraf etdiyi reallıqdır. Azərbaycanın milli və dövlət maraqlarını bütün səviyyələrdə layiqincə və uğurla təmin edən Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik gedişləri ölkəmizin mövqelərini davamlı olaraq gücləndirir. Prezident Azərbaycanın dövlət siyasətini beynəlxalq siyasi və iqtisadi proseslərlə uzlaşdırır, regional və qlobal miqyasda milli maraqlarımıza xidmət edən siyasi xətt yeridir.

VII Qlobal Bakı Forumunun açılış mərasimindəki nitqində bu barədə danışan Prezident İlham Əliyev bir daha Azərbaycanın xarici siyasətinin müstəqil olduğunu bəyan etdi: *"Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır".*

### Azərbaycan beynəlxalq əməkdaşlığın növbəti formatını yaradıb

Prezidentin qeyd etdiyi kimi, tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın xarici siyasət prioritetləridir. Bunun nəticəsidir ki, Azərbaycan regionun iqtisadi mərkəzinə çevrilib. Regiondakı Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri məhz ölkəmizdə kəsişir. Azərbaycan özünün qətiyyəti, tərəfdaş ölkələrlə bərabərhüquqlu əməkdaşlığı sayəsində buna nail olub. Rəsmi Bakının razılığı və iştirakı olmadan Cənubi Qafqaz regionunda qlobal layihələrin həyata keçirilməsi mümkün deyil.

Təbii ki, Azərbaycanın müstəqil siyasətindən söz açdıqca enerji layihələrinə toxunmamaq mümkün deyil. Ölkəmizin enerji siyasəti bütövlükdə regionun enerji xəritəsini dəyişib, Xəzərin karbohidrogen ehtiyatlarının alternativ yollarla dünya bazarlarına çıxarılmasını təmin edib. Son olaraq "Cənub qaz dəhlizi"nin çəkilməsi bir daha gərgin beynəlxalq münasibətlər şəraitində Azərbaycanın müstəqil siyasətinin təsdiqidir. Və bu siyasətlə Azərbaycan enerji, o cümlədən nəqliyyat sektorlarında Asiya, Qafqaz və Avropa ölkələrini əhatə edən beynəlxalq əməkdaşlığın yeni geniş formatını yaradıb.

Təbii ki, Azərbaycanın xarici siyasət prioritetlərindən biri də beynəlxalq təşkilatlarla əlaqələrdir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan nadir ölkələrdən biridir və Prezidentin forumda qeyd etdiyi kimi, bu imkandan iki təşkilat arasında daha çox tərəfdaşlıq qurmaq üçün istifadə edir.

Prezident İlham Əliyev lider qətiyyəti ilə tam müstəqil və Azərbaycanın dünyada mövqelərinin möhkəmlənməsinə və inkişafına xidmət edən uğurlu siyasət həyata keçirir. Beynəlxalq ictimaiyyətin Azərbaycana böyük hörmət və rəğbətlə yanaşmasının da əsas səbəbi məhz bu siyasətdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**QƏRAR №1/4**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. İbrahim Seyfulla oğlu Abbasov və Kənan Elman oğlu Qəhrəmanov 2 saylı Şərur, Həmzə Şaban oğlu Qasımlı 7 saylı Ordubad - Culfa, Faiq Şıxəli oğlu Hacıyev 37 saylı Nizami birinci (Gəncə), Xatirə Kazım qızı Məhərrəmli 48 saylı Yevlax, Elçin Hüseyn oğlu Hüseynov 67 saylı Cəlilabad şəhər, İlkin Əbilağa oğlu Həsənov 76 saylı Lənkəran - Astara, Tural Məhərrəm oğlu Əliyev 98 saylı Şəmkir şəhər, Turan Telman oğlu Məmmədov 109 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Elvin Rəsul oğlu Əhmədov 2 saylı Şərur, Arzuman Rəşid oğlu Vəlibəyli 7 saylı Ordubad - Culfa, Adil Hacıəhməd oğlu Yusubov 15 saylı Yasamal birinci, Zülfiyyə Əli qızı Mahmudova 48 saylı Yevlax, Samir Səməndər oğlu Həmidov 58 saylı Hacıqabul - Kürdəmir, Pərvin İlham oğlu Məmmədli 65 saylı Saatlı - Sabirabad - Kürdəmir, Yusif Əhməd oğlu Hacıqasımov 67 saylı Cəlilabad şəhər, Fəxrəddin Şahbaz oğlu Hüseyn 76 saylı Lənkəran - Astara, Mahir Qasım oğlu Məmmədov 109 saylı Balakən, Elmir Məhərrəm oğlu Həmidov 117 saylı Oğuz - Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*15.03.2019-cu il*

# VII Qlobal Bakı Forumu

## “Yaxın Şərqdə sülh və təhlükəsizlik”

VII Qlobal Bakı Forumu ikinci iş gününü panel iclaslarla davam etdirib. Forum çərçivəsində “Yaxın Şərqdə sülh və təhlükəsizlik” mövzusunda panel iclas keçirilib.



AZƏRTAC xəbər verir ki, Ərəb Liqasının sabiq baş katibi **Əmr Musanın** moderatorluğu ilə keçirilən panel iclasda Yaxın Şərqdə sülhə nail olmağın yollarına dair müzakirələr aparılıb. Qeyd edilib ki, regionda sülhün bərqərar olunması müəyyən qüvvələrin əlindədir. Bəzən münaqişə bölgə dövlətləri tərəfindən qızışdırılır. Bu səbəbdən problemin həlli çətinləşir.

İslam Tədqiqatları Mərkəzinin sədri **Turki Əl Faysal bin Əbdüləziz Əl Səud** deyib ki, Yaxın Şərqdə münaqişələr bütün dünyaya ziyan vurur, kütləvi insan tələfatına yol açır. Münaqişənin fəsadları artıq regionun hüdudlarını aşaraq bütün dünyaya yayılıb. Münaqişə tərəfləri öz aralarında razılığa gəlməsələr, Yaxın Şərqdə vəziyyət daha da gərginləşə bilər. Dünya birliyi də bu məsələdə öz sözünü deməlidir.

Türkiyənin sabiq xarici işlər naziri **Hikmət Çətin** bildirib ki, son onilliklərdə Yaxın Şərqdə bir sıra münaqişələr baş verib. Bu da regionda insan tələfatına səbəb olur və inkişafı ləngidir. “Ərəb baharı” adlandırılan inqilablar, eyni zamanda, terrorçuluq və yeni münaqişə ocaqları regiona dağıdıcı təsir göstərir. Populist və avtoritar liderlərin meydana çıxması münaqişələri dərinləşdirir. Təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə gəldikdə, bu, bir qədər mürəkkəb görünür. Sülhdən danışdıqda ölkədaxili problemləri və imkanları unutmaq olmaz. Burada təhsilin, texnologiyanın aşağı səviyyəsi münaqişəni daha da qızışdırır. Odur ki, regionun yeni sosial təmaslara ehtiyacı var.

Milli zəmində münaqişələrə dini qarşıdurmaların da əlavə olunduğunu bildirən İsrailin sabiq Baş naziri **Tzipi Livni** qeyd edib ki, problemin səbəbkarı təkcə İsrail deyil. Burada münaqişənin qızışmasının səbəbi müəyyən qüvvələrin toqquşan maraqlarıdır. Danışıqlarda tərəflər İsrail və Fələstindir. Sülh əldə edilməsi bu ölkələrin xalqlarından asılıdır. “Tərəflər arasında etimad itib. Çünki münaqişədə İsrail və Fələstini dəstəkləyən qüvvələr ortaya çıxır. İstəmirik ki, regionda Suriyada cərəyan edən proseslər baş versin. Burada sərt bir liderliyə ehtiyac var. İsraildə əhalinin 40 faizi ərəblərdir. Onlar yəhudilərlə eyni hüquqa malikdir. İsraili hər şeyə görə günahlandırmaq düzgün deyil”, - deyə Tzipi Livni vurğulayıb.

İordaniyanın keçmiş Baş naziri **Taher Masri** çıxış edərək deyib: “Sülh haqqında danışdıqda konkret məsələlərə diqqət yetirmək lazımdır. İsrailin qərarları sülhün bərqərar olmasına maneçilik törədir. Problemin köklərini araşdırmaq lazımdır. Biz sülh prosesini dəstəkləyirik. Cihadçılar dediyiniz qüvvələr İslamı təmsil etmirlər. Onların mövcud olması, əksinə, bizim əleyhimizədir”.

İtaliyanın sabiq xarici işlər naziri **Ancelino Alfano** vurğulayıb ki, diqqət Avropaya axışan Suriya qaçqınlarına yönəlməlidir. Yaxın Şərqdəki problem qaçqınların artmasına səbəb olur. Bu proses “Ərəb baharı”ndan sonra gücləndi. Yəməndə baş verən vətəndaş müharibəsi Aralıq dənizi regionunu əhatə edir. Bu da münaqişənin Yaxın Şərq hüdudlarından çıxması deməkdir. Münaqişənin həlli üçün əlverişli şərait yaranıb. Çünki müzakirələr aparmağa imkan verən kifayət qədər beynəlxalq təşkilatlar mövcuddur.

Yaxın Şərqdə baş verən proseslərin tarixinə nəzər salan İslam Əməkdaşlığı Təşkilatının sabiq baş katibi **Ekmələddin İhsanoğlu** deyib: “Osmanlı imperiyasının süqutundan sonra bölgədə yeni ərəb ölkələri meydana gəldi. Daha sonra sovet imperiyasının yaranması nəticəsində dünyada və regionda ikiqütblü siyasət hökm sürməyə başladı. SSRİ-nin süqutundan sonra bu təkqütblü siyasətlə əvəzləndi. Hazırda isə yeni siyasi mühitin formalaşması prosesi gedir. Dünyada güclərin bərabər paylanmasına nail olmaq lazımdır. Yalnız bu halda regionda sülh prosesi baş tuta bilər”.

Panel müzakirələrlə davam edib.

## “Balkanlar: bu günü və gələcəyi”

“Balkanlar: bu günü və gələcəyi” adlı panel iclas Bosniya və Herseqovinanın sabiq Baş naziri **Zlatko Laqumciyanın** moderatorluğu ilə keçirilib.



İclasda çıxış edən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü **Şefik Caferoviç** bildirib ki, ötən əsrin sonlarında Balkanlarda başlanan müharibələr başa çatsa da, hazırda bu regionda hələ də həllini gözləyən məsələlər var. Müharibə bu ölkələrdə yaşayan insanların həyatına çox təsir edib. Uzun sürən çalışmaların nəticəsində Balkanlarda sabitliyin təmin olunması istiqamətində xeyli nailiyyətlər əldə edilib.

Rumıniyanın Baş nazirinin müavini **Ana Birçal** Azərbaycanın qlobal məsələlərin müzakirə məkanına çevrildiyini deyib və bu forumu nümunə göstərib. O, bu kimi tədbirlərə uğurla evsahibliyi etdiyi üçün Azərbaycan dövlətinə minnətdarlıq edib.

Baş nazirin müavini Avropada sabitliyin təmin olunması istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, hazırda Avropada gərgin ictimai-siyasi vəziyyət müşahidə edilir. Vəziyyəti sabitləşdirmək üçün Avropa İttifaqına daxil olan ölkələr birgə fəaliyyət göstərməlidirlər.

Serbiyanın keçmiş Baş naziri **Mirko Tsvetkoviç** bir sıra Balkan ölkələrinin hələ də siyasi keçid dövrünü yaşadığını deyib. Qeyd edib ki, bəzi beynəlxalq güclər bu amildən öz mənafeləri naminə istifadə edirlər. Bu isə bölgədə sabitliyi təmin etmək işində problemlər yaradır. Lakin Balkan ölkələrinin əlverişli coğrafi-strateji mövqeyi və digər müsbət cəhətlər bu bölgənin aydın gələcək gözlədiyini deməyə əsas verir.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin keçmiş sədri **Mladen İvaniç** Balkanlarda iqtisadi və siyasi sabitliyin qlobal güclərdən çox asılı olduğunu deyib. O bildirib ki, beynəlxalq aktorların mübarizəsi kiçik dövlətlərin zərər görməsinə səbəb olur. Belə güclər inkişaf etməkdə olan ölkələrin mənafeyini, ümumiyyətlə, nəzərə almırlar.

Xorvatiyanın keçmiş Baş naziri **Yadranka Kosor** yenidən Azərbaycanda olmaqdan məmnunluq ifadə edib. O, forumda iştirak etmək üçün dəvətə görə təşəkkürünü bildirib. Y.Kosor Balkan bölgəsinin etnik baxımdan zəngin olduğunu deyib. Əlavə edib ki, burada bolqarlar, rumınlar, xorvatlar, slovenlər və digər xalqlar yaşayırlar. Bu zənginliyin müəyyən mənfi nəticələri də var. Belə ki, burada etnik rəngarənglik siyasi, bəzən də hərbi münaqişələrə gətirib çıxarır.

Albaniyanın keçmiş Prezidenti **Recep Meydani** Balkanların tarixboyu bir çox dəyişikliklərə, müharibələrə məruz qaldığını, buna görə də bu ölkələrin keçmişdən ibrət götürməli olduğunu deyib. Əlavə edib ki, hazırda bu regionda sabitlik hökm sürür və xoşbəxt gələcək qurmaq üçün bu, yaxşı fürsətdir. Avropa İttifaqına daxil olmaq bu region ölkələri üçün vacib məsələdir. Regional əməkdaşlıq nəticəsində bölgədə sülh əldə edilib.

Albaniyanın keçmiş Prezidenti **Buyar Nişani** belə tədbirlərin uğurla keçirilməsinə görə Azərbaycan dövlətinə təşəkkür edib. Qeyd edib ki, bu forumun əhəmiyyəti ildən-ilə artır. B.Nişani bildirib ki, Balkanların əlverişli coğrafi mövqeyi tarixən burada beynəlxalq güclərin maraqlarının toqquşmasına səbəb olub. Hazırda da bu proses davam edir. Bu isə regionda siyasi gərginliyə gətirib çıxarır. XX əsrin sonlarında baş verən proseslər buna bariz nümunədir.

Bolqarıstanın keçmiş Prezidenti **Petar Stoyanov** Balkan ölkələrinin Avropa İttifaqına daxil edilməsi məsələsində ədalətsizliklər olduğunu, bəzi əsassız iradların göstərildiyini bildirib. O deyib ki, bu ölkələrin Avropa İttifaqına daxil edilməməsi onların iqtisadi baxımdan geri qalmasına səbəb olur.

Regionun inkişafı üçün atılan addımlar barədə məlumat verən Monteneqronun keçmiş Prezidenti **Filip Vuyanoviç** bu işdə əldə edilən uğurların heç də asan başa gəlmədiyini deyib. Qeyd edib ki, regionun coğrafi baxımdan əhəmiyyətli mövqedə yerləşməsi burada mütəmadi olaraq böyük güclərin təhriki ilə münaqişələrə gətirib çıxarır.

## “Dünya üçün Çinin inkişafı və imkanları”

Forum çərçivəsində keçirilən növbəti panel iclas “Dünya üçün Çinin inkişafı və imkanları” mövzusuna həsr edilib.



Panel iclasının moderatoru, Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi **Vu Haylonq** Çinin dünya iqtisadiyyatında oynadığı rol, həyata keçirdiyi nəhəng layihələr barədə məlumat verib.

Şanxay Əməkdaşlıq Təşkilatının keçmiş baş katibi **Rəşid Alimov** bildirib ki, Çin investisiyaların cəlb edilməsi sahəsində dünya miqyasında lider ölkədir. Çinin təşəbbüsü ilə həyata keçirilən “Bir kəmər, bir yol” layihəsinə toxunan R.Alimov vurğulayıb ki, bu, investisiya baxımından ən böyük layihələrdən biridir.

Laosun xarici işlər nazirinin müavini **Khamphao Ernthavanh** Bakıda yüksək səviyyədə təşkil edilən belə bir tədbirə görə Azərbaycan hökumətinə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib. O qeyd edib ki, Çin iqtisadiyyatının sürətli artımı dünyada sülhün və təhlükəsizliyin təmini baxımından əhəmiyyətə malikdir. Çünki Çinin həyata keçirdiyi layihələrdə, demək olar ki, dünyanın hər iki ölkəsindən biri iştirak edir. Nazir müavini 2020-ci ildə Çin ilə Laos arasında dəmir yolunun açılacağını da diqqətə çatdırıb.

Macarıstanın sabiq Baş naziri **Peter Meddyeşi** deyib ki, Çin dünyada sabitləşdirici gücə malikdir. Hazırda bu ölkədə iqtisadiyyatın müxtəlif sahələrində sürətli inkişaf müşahidə olunur ki, bu da Çinin dünya iqtisadiyyatında böyük rol oynamasına imkan yaradır.

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin keçmiş müavini **Devid Merkel** diqqəti “Bir kəmər, bir yol” layihəsinə yönəldərək qeyd edib ki, qədim İpək yolunun bərpası sayəsində İndoneziyadan Avropaya qədər yeni bir marşrut yaradılır və dünya əhalisinin dörddəüçü bu layihədən faydalanacaq. Bu layihə iqtisadiyyatın inkişafına, Azərbaycandan da keçməklə Avropaya yük daşımalarının daha qısa məsafə ilə və az müddətdə həyata keçirilməsinə imkan verəcək. O bildirib ki, Prezident İlham Əliyev forumun açılışında söylədiyi nitqdə “Şərq-Qərb dəhlizi”nin və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin bu layihənin bir hissəsi olduğunu bildirib.

Rumıniyanın sabiq Prezidenti **Petre Roman** deyib ki, Çin infrastruktur sahəsində dünyada dominant mövqeyə malikdir. Son illərdə bu ölkə innovasiyalar sahəsində də uğurlu nəticələr əldə edib.

Yeni Zelandiyanın sabiq Baş naziri **Cennifer Şipli** Çinin yoxsulluğun aradan qaldırılması ilə bağlı əldə etdiyi müsbət nəticələrə dünyanın hələ də həsəd apardığını vurğulayıb. Pekinin nəhəng iqtisadiyyata malik olduğunu deyən sabiq Baş nazir bunun sayəsində Çinin öz təsirini getdikcə artırdığını diqqətə çatdırıb. O, digər ölkələrin Çinin bank sistemi sahəsindəki təcrübəsindən faydalana biləcəyini qeyd edib.

Serbiyanın sabiq Prezidenti **Boris Tadiç** Çinin hazırda regiona ən çox töhfə verən ölkə olduğunu vurğulayıb. O deyib ki, böhran dövründə bu ölkə 750 milyondan çox insanı yoxsulluq vəziyyətindən çıxarıb. Miqrant probleminə toxunan Serbiyanın sabiq dövlət başçısı bu məsələnin həll olunmasına Avropa ölkələri tərəfindən lazımi dəstək göstərilmədiyini bildirib.

Sloveniyanın sabiq Prezidenti **Danilo Türk** diqqətə çatdırıb ki, yeni texnologiyalar Çinin dünyaya verdiyi töhfələrdən biridir. O, bəzi Avropa ölkələrinin “ağıllı şəhər” yaratmaq üçün Çinin yüksək texnologiyalarından yararlanmaq niyyətində olduğunu söyləyib.

Çinin Renmin Universitetinin Çunyang Maliyyə Araşdırmaları İnstitutunun icraçı dekanı **Vanq Ven** hazırda ölkəsinin inkişaf potensialının daha yüksək olduğunu deyib. O, Çində yoxsulluğun azaldılması, korrupsiyanın aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb.

## “Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu”

VII Qlobal Bakı Forumu çərçivəsində daha bir panel iclas “Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu” mövzusunda keçirilib.



İclasa moderatorluq edən fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı, Milli Səhiyyə və Milli Onkologiya İnstitutunun sabiq direktoru **Harold Varmus** elmi layihələrin maliyyələşdirilməsinin, elmi infrastrukturun inkişaf etdirilməsinin əhəmiyyətindən, elmi qurumlar və hökumət arasında əməkdaşlığın təşkili məsələsindən danışıb. O, siyasi müstəvidə qərarların elmi cəhətdən əsaslandırılmasının zəruriliyini qeyd edib.

İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Komissiyanın sədri, Hindistanın Baş nazirinin iqtisadi məsələlər üzrə müşaviri **Rajendra Paşauri** iqlim dəyişiklikləri problemlərinin aradan qaldırılmasında elmin rolundan danışıb. Qeyd edib ki, elm gələcəkdə baş verə biləcək təhlükələrə nəzər sala bilər. Elmi ictimaiyyətin diqqətini iqlim dəyişiklikləri ilə bağlı intensiv hadisələrə daha çox cəlb etmək lazımdır. Problemi bir neçə ölkə həll edə bilməz. Bu məsələdə, həmçinin alimlər ünsiyyət qurmalı, bacarıqları ortaya çıxarmalıdırlar.

Yeni Zelandiyanın sabiq Baş naziri **Ceyms Bolger** təmsil etdiyi ölkədə ətraf mühitin qorunmasının bir hərəkata çevrildiyini deyib. O, Yeni Zelandiyanın GMO-ları qəbul etməməsi ilə bağlı səbəbləri diqqətə çatdırıb, habelə ölkəsində heyvandarlığın çox inkişaf etdiyini vurğulayıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmayıl Serageldin** iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində insanların həyat tərzinin dəyişdirilməsi məsələsinə toxunub, bu sahədə medianın rol oynayacağını vurğulayıb. O, elm adamlarının müstəqilliyinin qorunub saxlanması, onların siyasi liderlərin təsiri altına düşməməsi məsələsinin vacibliyini qeyd edib. Habelə qanunvericilər tərəfindən sosial media ilə bağlı məsuliyyət müəyyənləşdirilməsinin zəruri olduğunu bildirib.

Kanada Beynəlxalq İnkişaf Agentliyinin sabiq prezidenti, UNICEF-in icraçı direktorunun sabiq müavini **Marqaret Katley-Karlson** qeyd edib ki, iqlim dəyişikliyi probleminə elmin bütün sahələrini cəlb etmək lazımdır. Məsələn, sosiologiya cəlb edilərsə, bu sahənin mütəxəssisləri iqlim dəyişikliyinin cəmiyyətdə hansı dəyişikliyə səbəb olacağını deyə bilər.

Rumıniyanın sabiq Prezidenti **Emil Konstantinesku** panel sessiyanın mövzusuna gələcəklə əlaqədar strategiya məsələsi istiqamətində yanaşıb. O, tezliklə bilik iqtisadiyyatının bərqərar olacağını, cəmiyyətin də buna uyğun amillərlə inkişaf edəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, biliklərə əsaslanan dəyərlərə qiymət verilməlidir. Bu sahədə mədəniyyət mütəxəssisləri də öz sözünü deməlidirlər. Elmə əsaslanan qərarlar həqiqəti əks etdirir.

Qırğız Respublikasının sabiq Baş naziri **Comart Otorbayev** bu cür müzakirələrin insanları intellektual debatlara ruhlandırdığını bildirib. O, bərpaolunan enerji mənbələrindən istifadənin əhəmiyyətini vurğulayıb.

Mövzu ətrafında müzakirələrdə hər hansı problemin həllində alimlərin fikirlərinə diqqət yetirilməsinin zəruriliyi qeyd olunub. Həmçinin iqlim dəyişiklikləri problemlərinin həllinə gəncləri daha çox cəlb etməyin vacibliyi bildirilib.

Panel iclaslarda mövzularla bağlı diskussiyalar aparılıb, suallar cavablandırılıb.

## *Cəmil ÇİÇƏK:* “Qlobal Bakı Forumunda müzakirə olunan məsələlər dünya ictimaiyyəti üçün çox faydalıdır”



VII Qlobal Bakı Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinin rəhbərliyinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə və azərbaycanlı qardaşlarımıza dərin minnətdarlığımı bildirirəm. Düşünürəm ki, bu forumda müzakirə olunan məsələlər dünya ictimaiyyəti üçün çox faydalıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri VII Qlobal Bakı Forumunda iştirak edən Türkiyə parlamentinin sabiq sədri Cəmil Çiçək jurnalistlərə müsahibəsində deyib.

Cəmil Çiçək bildirib ki, Azərbaycanın beynəlxalq siyasi arenadakı mövqeyini göstərən bu forum müzakirə olunan məsələlərin əhəmiyyəti baxımından Türkiyə ictimaiyyəti üçün də böyük maraq doğurur. Azərbaycan əvvəlki illərdə də çox mötəbər tədbirlərə evsahibliyi edib. Bu forum onlardan biridir və çox uğurla həyata keçirilir.

Azərbaycan və Türkiyənin qardaş dövlətlər olduğunu vurğulayan, ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamını xatırladan C.Çiçək deyib: “Türkiyə hər zaman Azərbaycanın qazandığı nailiyyətlərə sevinir. Mən müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycanda dəfələrə səfərdə olmuşam. Azərbaycan sürətlə inkişaf edir. Xaricdən gələn qonaqlar bu inkişafı əvvəlki səfərləri ilə müqayisə edərək daha tez görürlər. Mən də Azərbaycanın getdikcə daha da inkişaf etdiyini, gücləndiyini, beynəlxalq müstəvidə nüfuz sahibi olan ölkəyə çevrildiyini görürəm”.

## *Buyar NİŞANİ:* “Azərbaycanın beynəlxalq əməkdaşlığın inkişafına verdiyi töhfələr təqdirəlayiqdir”



Azərbaycanın beynəlxalq əməkdaşlığın inkişafına verdiyi töhfələr təqdirəlayiqdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri VII Qlobal Bakı Forumunda iştirak edən Albaniyanın sabiq Prezidenti Buyar Nişani bildirib.

Sabiq Prezident qeyd edib ki, Azərbaycan beynəlxalq əməkdaşlığa və dialoqa töhfə verməklə təkcə dünya ölkələrinin bir-birinə daha da yaxınlaşmasında deyil, həm də onların iqtisadi inkişafında əhəmiyyətli rol oynayır.

Buna misal olaraq, Azərbaycanın Xəzər dənizi hövzəsindən təbii qazın Türkiyə, Albaniya, Yunanıstandan keçməklə Avropaya nəqlini nəzərdə tutan Transadriatik (TAP) qaz boru kəmərinin bizim regionda uğurla reallaşdırılması nəticəsində bu layihəyə daxil olan ölkələrin, o cümlədən Albaniyanın iqtisadi inkişafının əhəmiyyətli hissəsi olan investisiya qoyuluşunu qeyd etmək olar. Balkan regionu ölkələrinin üzləşdiyi əsas çağırışlardan birinin məhz qazlaşdırma olduğunu deyən Buyar Nişani belə layihələrin, xüsusilə də TAP və TANAP kəmərlərinin əhəmiyyətini vurğulayıb.

## *Baş nazir Boyko BORİSOV:* “Qlobal Bakı Forumu ölkələr arasında əməkdaşlığın inkişafına mühüm töhfə verir”



Qlobal Bakı Forumu burada müzakirə edilən mövzuların aktuallıq kəsb etməsi baxımından önəmli olması ilə yanaşı, həm də ölkələr arasında əməkdaşlığın inkişafına mühüm töhfə verir. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Bolqarıstanın Baş naziri Boyko Borisov deyib.

Baş nazir Azərbaycan-Bolqarıstan münasibətlərinə toxunaraq ölkələrimiz arasında səmərəli əməkdaşlığın mövcud olduğunu söyləyib. O qeyd edib ki, Azərbaycanla Bolqarıstan bir çox sahələrdə, o cümlədən turizm, mədəniyyət və digər sahələrdə uğurlu əməkdaşlıq edir. “Hesab edirəm ki, bu əməkdaşlıq daha da inkişaf etdiriləcək”, - deyə Baş nazir əlavə edib.

## *Ekmələddin İHSANOĞLU:* “Azərbaycan mühüm məsələlərin müzakirə olunduğu önəmli məkana çevrilib”



Azərbaycan mühüm məsələlərin müzakirə olunduğu önəmli məkana çevrilib. VII Qlobal Bakı Forumu bunu bir daha təsdiq etdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında forumda iştirak edən İslam Əməkdaşlıq Təşkilatının sabiq baş katibi Ekmələddin İhsanoğlu söyləyib.

E.İhsanoğlu qeyd edib ki, Qlobal Bakı Forumunda beynəlxalq ictimaiyyəti narahat edən məsələlər müzakirə olunur. Bu müzakirələrdə dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət başçıları, sabiq prezidentlər, ictimai-siyasi xadimlər, diplomatlar iştirak edirlər. Bir sözlə, Bakı Forumu qlobal məsələlərin səmərəli müzakirəsi üçün mühüm tədbirdir. Artıq yeddinci ildir keçirilən bu forumun önəmi ildən-ilə daha da artır.

Cəlil Məmmədquluzadə -150

*O gün zamanı ölçmürdü, vaxt mahiyyətini itirmişdi və yalnız bu böyük qarşılaşmanı qızıl hərflərlə tarixə həkk edirdi...*
*Gözlərini açan gündən dünyanı qaranlıq görən, aydınlıq uğrunda mübarizə aparan və illərdir mənəvi aclıqla savaşaraq bütün çətinliklərə sinə gərən iki şəxsin birləşərək zülmətə ziya saçma günü idi...*
*Mənən cilalana-cilalana, təkmilləşə-təkmilləşə uzun və çətin bir yol qət etmişdilər bu günə qədər...*
*Və bu dünyada heç nə təsadüfi olmur...*
*Tale özü onları əvvəlcədən bu gün üçün hazırlamışdı...*
*Həmin məqam yetişəndə, bir payız günü axşamçağı yolları kəsişmişdi...*
*Azərbaycanda tənqidi realist nəsrin dahi yaradıcısı, dramaturgiya tariximizdə tragikomediya mərhələsinin banisi, satirik publisistik məktəbin əsasını qoymuş Mirzə Cəlil və zadəgan ziyalı zümrəsinin ən məşhur qadın təmsilçisi, xeyriyyəçi, maarifçi Həmidə xanım Cavanşir...*



# Ölümsüz eşq

## Milli məfkurəmizin qoşa sərkərdəsi - Cəlil və Həmidə Məmmədquluzadələr

"Pyes qeyri-adi uğur qazandı. Teatrda iynə atsan, yerə düşməzdi. Hər fasilədə tamaşaçılar müəllifi gurultulu alqışladılar..."- deyə Həmidə xanımın aldığı həmin imzasız məktubda bildirilirdi.

Əslində, bu iki sətirlik, sözlərdən ibarət məktub, o qədər incə mətləblərdən xəbər verirdi ki, onun mahiyyətini romanlara belə sığdırmaq mümkün deyil...

Hətta aralarında kiçik incikliklər, mübahisələr yarananda belə bir-birlərinə uğurları barədə məlumat verirdilər.

Və Həmidə xanım da öz növbəsində, "Sənin bu qədər məşhurlaşmağına sevinirəm" - deyir, Şuşada görüşdükləri zaman.

"Sənə layiq olmağa çalışıram"- deyə, iltifatla cavab verir böyük ədib və beləcə barışırlar...

### Səssiz sevgi

Həmidə xanım həm də Cəlil Məmmədquluzadə əsərlərinin ilk dinləyicisi idi.

Mirzə Cəlil "Anamın kitabı" pyesini yazıb bitirir və Həmidə xanıma oxuyur: "O, çox təsirli oxuyurdu. Pyes məni alıb aparmışdı, sanki hər şeyi unutmuşdum. O, qiraəti bitirəndə mən yaş dolu gözlərimlə oturmuşdum, bir müddət dinib-danışa bilmədim. Özümə gəldikdən sonra onu xeyli təriflədim, təşəkkür etdim..."

Elə Həmidə xanım atası Əhməd bəy haqqında yazdığı xatirələrini də ilk dəfə Mirzə Cəlilə oxumuşdu. Bu xatirələr böyük ədibin marağını və diqqətini çəkir, Həmidə xanıma yazdıqlarını daha da genişləndirməsini tövsiyə edir...

Onu da vurğulayaq ki, Həmidə xanım xatirələrini qələmə alarkən, həyatında müstəsna rol oynayan iki kişi - Əhməd bəy və Cəlil Məmmədquluzadə haqqında ətraflı yazıb. Amma həmin xatirələrin bircə yerində belə Mirzə Cəlilə olan sevgisini, hansısa romantik sözlə ifadə etməyib...

Axı, elə sevgi özü də sözlə ifadə olunan bir hiss deyil...

Sevincdə-kədərdə, varlıqda-yoxluqda, sağlıqda-xəstəlikdə bir olmaq...

Sevginin mahiyyəti də elə bu deyilmi?!

Sevgi yaşanır, baxışlarda əks olunur, ömrə həkk olunur...

Onların sevgisi də eləcə səssiz-səssiz, ürəkdən, ürəyə süzülürdü...

Həm də bu ilahi sevginin qığılcımları, xalqın ən sadə nümayəndəsindən tutmuş, ən mötəbər şəxslərinə qədər hər kəsin yoluna işıq saçırdı...

### Qoy ədəbiyyat tarixinə yazılsın ki...

1910-cu ildə eşidirlər ki, Azərbaycan ədəbiyyatının böyük şairi Mirzə Ələkbər Sabir xəstədir. Mirzə Cəlil şairə məktub yazaraq xahiş edir ki, onlara müalicə almağa gəlsin. Həmidə xanım da, Mirzə Cəlil də bir-birinə aman vermədən böyük şairin qulluğunda dururdular.

M.Ə.Sabir özü də Abbas Səhhətə məktubunda bu barədə yazırdı: "Mirzə Cəlil və Həmidə xanım cənablarından çox razıyam. Bilmirsən mənə nə qədər ehtiram edirlər! Xülasə, bilmirəm nə dil ilə təşəkkür edim".

"Məlumat" qəzetinin 1911-ci il 7 avqust tarixli sayında böyük şairin müalicəsinə laqeydliklə yanaşanlardan narazılığını ifadə edən Üzeyir Hacıbəyli Həmidə xanımın xeyirxahlığını, qayğısını nümunə göstərirdi: "Qoy ədəbiyyat tarixində yazılsın ki, Sabir kimi şairi diriliyində təqdir edən kişi olmadısa da, bir nəfər arvad oldu ki, şairin səhhəti və onun müalicəsi üçün milyonçu kişilərə rəğmən, öz varından keçəcək qədər böyük bir həmniyyət göstərdi".

***(Əvvəli qəzetin 15 mart tarixli nömrəsində)***

Həmin illərdə Həmidə xanım dəhşətli xəstəlikdən əziyyət çəkirdi və bu, Mirzə Cəlili olduqca üzür, onu itirəcəyi fikrini ağlına belə gətirmək istəmirdi.

Həmidə xanımın vəziyyəti isə getdkcə pisləşirdi...

"Mən Cəlili çağırdım və ölümün gəlişinə hazır olmaq üçün vəsiyyətnaməmi yazdırdım. Onun gözlərindən yaş sel kimi axırdı. Cəlil danışa bilmirdi, dinməz-söyləməz əlimi sığallayırdı..."-yazır Həmidə xanım.

Amma əcəl bu ocağa hələ illər sonra gələcəkdi, özü də ona doğru yox...

### Yaşamağa qoymurlar məni...

Ölkədə baş verən dəyişikliklər birbaşa onların da həyatına təsir edirdi, həm maddi, həm mənəvi cəhətdən...

Hətta sovet hökuməti qurulandan sonra yaranan qarışıqlıq nəticəsində bir müddət Azərbaycanı tərk edərək, Təbrizdə qalmalı olurlar. Həmidə xanıma məxsus bütün mal-mülk, varidat başlı-başına qalır, dağılır...

Cənubi Azərbaycanda da xeyli çətinliklərlə qarşılaşırlar...

Buna baxmayaraq "Molla Nəsrəddin" jurnalını orada da nəşr etdirirlər.

Müəyyən zamandan sonra yenidən vətənə dönürlər. Həmidə xanım mülkünün başına qayıdır, təsərrüfatını bərpa etməyə çalışırdı, amma onu gözü götürməyənlər buna əngəl olur, problemlər yaratmağa çalışırdılar. Bütün bunlardan bezən Həmidə xanım Mirzə Cəlilə şikayət edirdi: "Bunlar məni rahat yaşamağa qoymurlar".

Mirzə Cəlil isə ona təsəlli verir, məktub yazaraq yanına çağırır və deyirdi ki, heç olmasa sən də bir az rahatlıq tap.

Bu həm də o zaman idi ki, Həmidə xanımın gənc qızı Mina Davatdarova intihar etmişdi...

Onun mənəvi dayağı isə yalnız Mirzə Cəlil idi...

Dərd hər zaman bu iki insanın taleyinə batmanla gəlirdi... Bir fəlakətdən qurtulmamış, digəri ilə rastlaşır, bir nisgili unutmamış, yenisiylə qarşılaşırdılar...

Çox çətin idi həyatları, çox...

### "Mollla Nəsrəddin"siz yaşamaq olarmı!

Mirzə Cəlilin səhhətində də ciddi narahatlıqlar yaranmışdı, baş ağrılarından tez-tez şikayət edirdi. Maddi sıxıntılar, yaradıcılıq problemləri, Həmidə xanımın qarşılaşdığı haqsızlıqlar, oğlu Midhətin səhhəti ilə bağlı keçirdiyi narahatlıqlar onu tamamilə əldən salırdı...

1930-cu ildə Mirzə Cəlil iflic olur və sol əli ilə ayağının fəaliyyəti zəifləyir.

"Molla Nəsrəddinə" qarşı göstərilən etinasızlıq isə onu bütün hər şeydən daha çox incidir, həyatdan küsdürür, yaralayırdı...

Hələ 1923-cü ildə yazıçı "Molla Nəsrəddin" məcmuəsinin ildönümünü keçirmək təşəbbüsündə olsa da, ona dəstək verən olmur. 1931-ci ildə məcmuənin 25 illik yubileyini keçirmək istəyirlər. Mirzə Cəlil yubiley keçirmək istəyənlərə kinayə ilə deyir:

Tələsməyin, hələ tezdir, Allah qoysa 75 illiyini bayram edərsiniz.

1931-ci ilin yanvarın 7-də "Molla Nəsrəddin" jurnalının son nömrəsi çıxır. Cəlil Məmmədquluzadə bu gündən sonra cəmisi bircə il yaşaya bilir...

"Molla Nəsrəddin" jurnalının məsul katibi Azərbaycan Xalq Komissarlar Şurasının sədrinə yazırdı ki, Cəlil Məmmədquluzadə ağır xəstədir, kurort müalicəsinə ehtiyacı var, amma bunun üçün maddi imkanı yoxdur. Hökumət ədibə 200 manat pul və Kislovodska putyovka verir. 1930-cu ildə dekabrın axırında Mirzə Cəlil Kislovodskdan evə qayıdarkən onu müalicə edən həkim yazıçıya bağlı bir zərf verir və Bakıdakı həkiminə yetirməsini xahiş edir. Sonralar Mirzə Cəlil etiraf edir ki, Bakıyacan dözməyib, zərfi açıb məktubu oxuyub. Orada yazılıbmış ki, xəstənin işi bitib, iki aydan çox yaşamaz. 1931-ci ilin dekabrında isə O, Həmidə xanıma deyir: "Amma həkim düz bilməyib. O, deyən vaxtdan on ay da çox yaşayıram..."

### Külə dönən əlyazmalar

Həmidə xanım Mirzə Cəlillə keçirdikləri o unudulmaz və kədərli günləri belə xatırlayırdı: "Mirzə Cəlil həmişə deyərdi ki, uşaqları yaxşı yedizdirmək lazımdır, yoxsa xəstələnər və ölərlər. Amma onları yaxşı yedizdirməyə maddi imkan çatmırdı, ona görə də həyəcanlanır, əzab keçirirdi, əsəbi olmuşdu. Gedib bir kömək istəməyə də razı deyildi. Ürəyində elə düşünürdü ki, onu lazımınca qiymətləndirmirlər. Biz odun ala bilmirdik. Bir dekabr axşamı qar qarışıq güclü Xəzri əsirdi. Mirzə Cəlil oğlanlarının otağına girdi və oradan çıxarkən: - Çox soyuqdur, bu soyuqda başlarına bir şey girməz, gərək sobanı qalayaq, - dedi, - öz otağına gedib şkafı açdı, əlyazmalarını çıxartdı. Onları bir-bir gözdən keçirib yerə atırdı. Mən narahat oldum, yanaşdım, soruşdum ki, nə etmək istəyirsən. Dedi ki, sobanı qalamaq istəyirəm. Mən xahiş elədim ki, əlyazmalarını yandırmasın, hələ gərək ola bilərlər. Ondansa taxta bir şey axtaraq. Cavab verdi ki, yandırmalı nə mümkünsə hamısını yandırmışıq. Mən ürək ağrısı ilə onun əli ilə yazdığı səhifələrin qalaq-qalaq yığıb sobaya qoymasına və kibrit çəkməsinə baxırdım. Hiss edirdim ki, bu, çox böyük itkidir. Amma mane ola bilmirdim, o, çox əsəbi idi. Nəhayət, sobanın ağzını bağladı, yenidən oğlanlarının otağına getdi və qayıdıb: "Soba istidir" - dedi. O, məmnun idi və arxayın yıxılıb yatdı. Axırıncı dəfə sobanı qalayırdı".

### Kaman ayrılıq nəğməsi çalır...

"...Mirzə Cəlil çarpayıdan durub, kamançasını götürüb, çalmağa başladı. Elə gözəl çalırdı ki, mən işimi bir kənara qoydum, ona qulaq asmağa başladım. Axırıncı akkordu çox təsirli götürdü, lap ürəyim ağrıdı, gözlərim yaşardı. Çalıb qurtarandan sonra ehmallıca kamançanı aparıb əvvəlki yerinə qoydu. Axırıncı dəfə onda kamança çaldı".

1932-ci ilin yanvarın 4-də Mirzə Cəlilin halı birdən-birə pisləşir. İynə vururlar, masaj eləyirlər, həkim çağırırlar. Mirzə Cəlil: "Həkim çağırmayın, Midhətə zəng vurun, qoy tez gəlsin" - deyib. Oğlunun iş nömrəsini də özü verib. Oğlu gəlib çıxanda artıq şüurunu itiribmiş. Son sözləri: - Midhət gəldi? - olub.

"...Ölümünə inanmırdım, inadla onun əllərini ovuşdurur, alnının tərini silirdim. Birdən üzündən qan çəkildi, sinəsindən son nəfəsi çıxdı və o, əbədilik susdu. Yanvarın dördü, gündüz saat üç idi".

Mirzə Cəlilin bu dünyadan köçməsi ilə Həmidə xanımın xatirələri də sona çatır.

Kim bilir, bəlkə də, bununla Həmidə xanım Mirzə Cəlillə bərabər, özünün də acılı-şirinli günlərinin, ömür xatirələrinin bitməsinə bir işarə vururdu...

**Cəlildən sonra**

Həmidə xanım isə Mirzə Cəlilə ömrünün sonunda Bakıda hökümət tərəfindən verilmiş evdə 1955-ci ilə qədər yaşayır...

Amma bu 23 il də onun ömrünə o qədər müsibətlər yazır ki...

Qızı Minadan sonra oğlu Midhətin ölümü kimi dəhşətli faciəyə, dözməli olur...

Amma heç zaman öz müqəddəs xeyirxahlıq, maarifpərvərlik, vətənə xidmət missiyasından bir an olsun əl çəkmir...

Ömrünün qalan hissəsində də ictimai işlərini davam etdirir, Mirzə Cəlilin əsərlərini tərcümə etdirir, xatirələrini yazır...

Yazı boyunca Həmidə xanımın Mirzə Cəlil haqqında xatirələrindən nümunələr gətirmiş, böyük ədibin və maarifpərvər xanımın həyatına daha yaxından məhz bu xatirələr sayəsində bələd olmuşuq.

Və elə bu yerdə, "Xatirələrim"in marqalı yazılma tarixindən bəhs etmək yerinə düşər.

### Həmidə xanım Mircəfər Bağırovu xilas edib Gülablıda gizlədir

Həmidə xanımın öz atası - Qarabağ xanlığının qurucusu Pənah xanın oğlu, xanlığın idarəedicisi Mehralı bəyin nəvəsi Əhməd bəy Cavanşir haqda yığcam bir xatirə kimi yazmağa başladığı, sonda isə təxminən 100 şagird dəftəri həcmində genişləndirdiyi bu kitabın əsas qismi Mircəfər Bağırovun sifarişilə qələmə alınıb.

Deyilənlərə görə, hələ Cümhuriyyət illərindən əvvəl təqibdən qaçaraq sağ qalmış bir neçə nəfəri ilə kahada gizlənən M.Bağırov xilas üçün mahalda bir elə kişi bəy-xan ola-ola, məhz Həmidə xanımın üstünə adam göndərir. Həmidə xanım onları bəladan xilas edib Gülablıdakı qohumugilə yola salır və düz bir ay o ailədə yeyib-yatıb sağaldıqdan (ən əsası isə, qəzəbli rəqiblərinin yadından çıxdıqdan) sonra Bakıya yola salınır.

### "Mən görmədiklərimi yaza bilmərəm"

İllər keçir, "Xatirələrim"də qeyd olunduğu kimi, artıq Azərbaycan SSR-in rəhbəri olmuş bu adam Həmidə xanımın etdiklərini də yad edib, Qarabağa gəlir. Həmin vaxt Kəhrizlidə yaşayan Həmidə xanım: "O mənimlə də görüşdü..."- yazır.

Bir müddət sonra Həmidə xanıma ərizə yazdırıb, bir günün içində Yazıçılar İttifaqına üzv seçirlər. Yüksək maaş, xüsusi xidmət maşını ("M-1") imtiyazları, yüksək qonorar, kitabın dərsliklərə salınması vədləri və...

Beləliklə, vaxt başa çatır və Həmidə xanım yazdıqlarını Yazıçılar İttifaqına təhvil verir. Növbədə yalnız kitabın çapı qalırdı. Bir aydan sonra Həmidə xanıma Yazıçılar İttifaqından bildirirlər ki, yoldaş Bağırov əsəri bəyənməyib, çünki onun Qarabağdakı bolşevik fəaliyyəti, vətən və xalq qarşısında əvəzsiz xidmətləri kitabda geniş şəkildə əks olunmalıdır: "Mənim keçmiş bolşevik fəaliyyətimdən də yazsın!.." -deyə bildirir.

Həmidə xanımın cavabı isə qısa və konkret olur: "Mən görmədiklərimi yaza bilmərəm".

Beləcə, repressiyaların tüğyan etdiyi bir dövrdə cəsarətli qadın "yalançı tarix" yazmaqdan imtina edir...

### Əbədilik

Onları andıq, tale yollarına nəzər saldıq.

Hər sətrindən nalə çəkən kaman səsi eşidilən qəmli və real həyat hekayətlərini ürəyimizlə dinlədik, ruhumuzla qulaq verdik...

Çox keşməkeşli, amma şərəfli bir ömür sürdülər...

Qoşa addımladılar başdan-başa mübarizə, milli istiqlal uğrunda savaş, cəhalətlə vuruş içərisində keçən həyat yollarını...

Bir-birlərinin boşluğundan doğuldular, tam yaratdılar, bütövə çevrildilər, əbədiləşdilər...

Azərbaycanda tənqidi-realist nəsrin dahi yaradıcısı, dramaturgiya tariximizdə tragikomediya mərhələsinin banisi, satirik publisistik məktəbin əsasını qoymuş Mirzə Cəlil və zadəgan ziyalı zümrəsinin ən məşhur qadın təmsilçisi, xeriyyəçi, maarifçi Həmidə Məmmədquluzadələr...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Ölkəmizi tanıyaq

# Tur-aksiyaya məktəblilər böyük həvəslə qoşulurlar

Dövlət başçısının təşəbbüsü və tövsiyəsi ilə artıq altıncı ildir ki, təşkil olunan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasına "Qızılgüllər diyarı" kimi tanınan Zaqatala rayonunun məktəbliləri də böyük həvəslə qoşulublar.

AZƏRTAC xəbər verir ki, Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa marşrutu üzrə ölkənin qərb bölgəsinə ekskursiyaya yollanan məktəblilərlə bir gün öncə Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən görüşdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə artıq altıncı ildir uğurla davam edən tur-aksiyaların yeniyetmə və gənclərin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına, onların dünyagörüşünün daha da zənginləşməsinə böyük töhfə verdiyini bildirib. Vurğulanıb ki, ölkəmizin tarixini, mədəniyyətini, müstəqillik illərində qazanılan nailiyyətləri dərindən öyrənmək məqsədi daşıyan bu layihə Prezident İlham Əliyevin yetişməkdə olan gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasına verdiyi böyük önəmin bariz nümunəsidir. İcra hakimiyyətinin başçısı ekskursiyanın məktəblilər üçün çox faydalı olacağına, tur-aksiya iştirakçılarının ölkəmizin qərb bölgəsindən zəngin təəssüratlarla qayıdacaqlarına əminliyini ifadə edib.

Qeyd olunub ki, Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin böyük payı var. İndi ölkədə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu baxımdan məktəblilərin səfər edəcəyi qərb bölgəsinin rayonları da Zaqatala rayonu kimi ölkə iqtisadiyyatında mühüm yer tutur.

Martın 15-də səhər saatlarında Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında böyük qələbəlik var idi. Ölkənin qərb bölgəsinə ekskursiyaya çıxan məktəbliləri yola salmaq üçün mərkəzin qarşısına toplaşan rayonun rəhbər işçiləri, müəllim və valideynlər şagirdlərə tövsiyələrini verirdilər.

Məktəblilər əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar artıq gözəl ənənə halı alıb.

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Martın 15-də səhər tezdən tur-aksiyanın Quba-Qusar-Xaçmaz marşrutunun iştirakçılarını yola salmaq üçün Astara Rayon İcra Hakimiyyətinin, təhsil şöbəsinin məsul işçiləri və valideynlər Heydər Əliyev Parkına toplaşmışdılar.

Yolasalma mərasimdə çıxış edən rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar şöbəsinin müdir müavini Mərasim Hacızadə, valideynlər və şəhər sakinləri məktəblilərə yaxşı yol arzulayaraq, ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Qeyd olunub ki, Quba-Qusar-Xaçmaz bölgəsində son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları dörd gün müddətində bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar.

Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə də seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdıqları Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq. Qubada fəaliyyətə başlayan "ASAN Həyat" kompleksi barədə məlumatlar da tur-aksiya iştirakçılarının marağına səbəb olacaq.

Şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar.

Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, xalça muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunacaq, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

Qrupun rəhbəri Tural Eyvazov müsahibəsində bildirib ki, tur-aksiya məktəblilərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayacaq. Maarifləndirici tur-aksiya, eyni zamanda, məktəblilərin biliklərinin artırılmasına da öz töhfəsini verəcək.

"Ölkəmizi tanıyaq" tur-aksiyasının digər iştirakçısı - Astara şəhər 2 nömrəli tam orta məktəbin IX sinif şagirdi Nərmin Məmmədli sevincini bölüşərək deyib: "Azərbaycanın tarixi, onun mədəniyyət abidələri ilə əyani tanışlıq hamımızın ürəyincədir. Quba, Qusar və Xaçmaz rayonlarının qədim tarixi, adət-ənənələri, mədəniyyət və incəsənəti çox məşhurdur. Bütün bunları görmək bizə də nəsib olacaq. Məktəblilər üçün bu imkanı yaradanlara minnətdarlığımızı bildiririk."

Sonra aksiya iştirakçılarını Qubaya aparan avtobus yola düşdü.

Həmin gün "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Lənkəran, Lerik və Yardımlı rayonlarının məktəbliləri də Quba-Qusar-Xaçmaz marşrutu üzrə ölkəmizin şimal bölgəsinə səyahətə başlayıblar.

Tur-aksiya iştirakçılarının yolasalma mərasimində həmin rayonların icra hakimiyyətlərinin rəhbər şəxsləri, təhsil işçiləri, valideynlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində qazanılmış nailiyyətlərin dərindən öyrənilməsi məqsədi daşıyan "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaya qoşulan Tərtər məktəbliləri Qəbələ, Şəki və Zaqatala rayonlarını daha yaxından tanıyacaqlar.

Martın 14-də tur-aksiyada iştirak edəcək şagirdlər Tərtər şəhərindəki Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Burada keçirilən görüşdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, tur-aksiyanın əhəmiyyətindən danışıb. Bildirib ki, ölkəmizdə gənc nəslin inkişafı üçün hərtərəfli şərait yaradılıb. Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin bilikli, dünyagörüşlü formalaşması, Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. "Ölkəmizi tanıyaq" adı ilə keçirilən maarifləndirici tur-aksiyada da məqsəd gənclərin dünyagörüşünü daha da zənginləşdirmək, onlara Vətənimizi daha yaxından tanıtmaq və sevdirməkdir.

Müstəqim Məmmədov ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə ətraflı məlumat verib. Ölkəmizin hər bir bölgəsinin özünəməxsus xüsusiyyətləri, təbiəti, tarixi abidələri, adət-ənənələri, kulinariyası olduğunu qeyd edərək, şagirdlərə səfərlərini xoş və mənalı keçirməyi, getdikləri rayonlar haqqında geniş məlumatlar əldə etməyi tövsiyə edib.

Martın 15-də rayonun mərkəzi meydanında məktəblilərin yolasalma mərasimi keçirilib. Rayon rəhbərliyi, təhsil işçiləri və valideynlər tur-aksiya iştirakçılarına tövsiyələr verib, səfərlərinin mənalı və maraqlı olmasını arzulayıblar.

Qrup rəhbəri Tunarə Məmmədzadə AZƏRTAC-a müsahibəsində deyib: "Qəbələ, Şəki və Zaqatala rayonları gözəl təbiəti, multikulturalizm ənənələri və tarixi məkanları ilə tanınır. Əminəm ki, məktəblilər tur-aksiyadan olduqca məmnun qalacaq və rayonumuza yüksək təəssüratlarla dönəcəklər. Onlar Şəki şəhərində Dövlət Tarix-Memarlıq Qoruğu, Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi, sənətkarlar məhəlləsi və Kiş kəndində yerləşən qədim Alban məbədi ilə tanış olacaqlar. Tur çərçivəsində məktəblilər Zaqatalada Tarix-Mədəniyyət Qoruğu, Heydər Parkı, Dədə Qorqud Meydanı, Tarix-Diyarşünaslıq Muzeyi, fındıq emalı zavoduna, Qəbələdə isə Heydər Əliyev Mərkəzinə, Tarix-Diyarşünaslıq Muzeyinə, Heydər Əliyev adına Konqres Mərkəzinə, "Qəbələnd" istirahət mərkəzinə, "Beltmann" piano zavoduna, "Tufandağ" Xizəkçilik Kompleksinə və Qəbələ Konserv Zavoduna səfər edəcəklər. Həmçinin Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nohur gölünə, Vəndam şəlaləsinə, udinlərin yaşadığı Nic kəndinə ekskursiya edəcəklər. Səfər çərçivəsində intellektual oyunlar, musiqili-əyləncəli proqramlar da təşkil olunacaq".



Zaqatala şəhər 1 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Şamil Rəhimov, Muxax kənd məktəbinin şagirdi Fədayə Vəliyeva və digər məktəblilər gənclərə belə gözəl layihə bəxş etdiyinə görə məktəblilər adından Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

Rayon rəhbərliyinin, müəllim və valideynlərin xeyir-duasından sonra məktəblilər onlar üçün ayrılmış avtobusa əyləşərək Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa marşrutu üzrə yola düşüblər.

* * *

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində martın 15-də səhər saatlarında Balakən rayonunun fəal məktəblilərindən ibarət qrup respublikamızın qərb bölgəsinə yola salınıb. Bayraq muzeyinin qarşısına toplaşan rayonun rəhbər işçiləri, müəllim və valideynlər gənclərə tövsiyələrini veriblər.

Yolasalma mərasimində çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Nəzakət Rüstəmova dövlət başçısının tapşırığına əsasən həyata keçirilən tur-aksiyaların böyüməkdə olan gənc nəslin vətəndaş kimi formalaşmasında mühüm əhəmiyyətə malik olduğunu bildirib. Diqqətə çatdırılıb ki, tur-aksiya çərçivəsində şagirdlər bir-birindən gözəl məkanlarda olacaq, ölkəmizin ikinci böyük şəhəri Gəncənin və qərb bölgəsinin rayonlarının zəngin və çoxəsrlik tarixi, son illərdə keçdiyi sürətli inkişaf yolu, mədəniyyəti haqqında dolğun məlumat əldə edəcəklər. Məktəblilər, eyni zamanda, marşrut boyunca yerləşən şəhər və rayonlarımızda aparılan tikinti-quruculuq işlərinin, iqtisadi tərəqqinin canlı şahidi olacaq, yurdumuzun gözəlliklərini əyani şəkildə görəcəklər.

Sonra tur-aksiya iştirakçıları onlar üçün ayrılmış avtobusla Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa marşrutu üzrə yola düşüblər.

* * *

Ölkəmizin orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaların növbəti turuna start verilib. İsmayılbəyli kənd tam orta məktəbin 9-cu sinif şagirdi Könül İmanova tur-aksiyada iştirak etdiyinə görə sevincini belə ifadə edib: "Ötən illərdə tur-aksiyada iştirak edən şagirdlər təəssüratlarını bizimlə də bölüşürdülər. Çox istəyirdim ki, bu aksiyada mən də iştirak edim. Bu arzum gerçəkləşib. İnanıram ki, səfərimiz maraqlı və mənalı olacaq".

Buruc kənd tam orta məktəbin şagirdi Elcan Aslanlı isə deyib: "Çox həyəcanlıyam. Gəzəcəyimiz yerləri, tanış olacağımız tarixi abidələri görməyə səbirsizlənirəm. Əminəm ki, səfərdən xoş təəssüratlarla dönəcəyik".

Tur-aksiya iştirakçıları mərkəzi meydanda qurulmuş səməninin ətrafında rəqs ediblər. Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra onlar üçün ayrılmış xüsusi avtobuslarla Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə yola düşüblər.

# Ermənistan yeni etirazlarla çalxalanır

## İşğalçı ölkədə iş yerlərinin açılması əvəzinə köhnələrinin bağlanması vəziyyəti daha da ağırlaşdırır

Ağır sosial-iqtisadi vəziyyət fonunda Ermənistanda müşahidə olunan hallardan biri də yenidən çoxsaylı etiraz aksiyalarının başlanmasıdır. Görünən budur ki, ölkə vətəndaşları artıq maddi-sosial durumlarının nə vaxtsa yaxşılaşacağına dair olan ümidlərini tam itirmək üzrədirlər. Xüsusən də yeni iş yerlərinin açılması əvəzinə köhnələrinin bağlanması vəziyyəti daha da ağırlaşdırır.

Elə bunun nəticəsi olaraq bu günlərdə "Yüksəkvoltlu energetik şəbəkə" şirkətinin şimal filialının əməkdaşları işdən azadedilmələrə etiraz əlaməti olaraq Gürcüstana gedən dövlətlərarası yolu bağlayıblar. Filialın direktoru Edqar Bocukyanın jurnalistlərə bildirdiyinə görə, bir neçə əməkdaş səbəbi izah edilmədən işdən çıxarılıb.

### "Əgər işləməsək, bizi kim dolandıracaq?"

Bundan başqa, paytaxtda lombardların və valyutadəyişmə məntəqələrinin əməkdaşları da hökumət binası qarşısında etiraz aksiyası keçiriblər. Etirazçılar "Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliklərə qarşı çıxırlar. Qanun layihəsinə əsasən, Ermənistanda dövlət rüsumları təqribən 60 dəfə artırılacaq.

Aksiya iştirakçılarının sözlərinə görə, hazırda qüvvədə olan qanunda lombardlar üçün nəzərdə tutulan dövlət rüsumunun məbləği 100 min dram, valyutadəyişmə məntəqələri üçün isə 50 min dramdır. Lakin yeni qanun qəbul edildikdən sonra onlar müvafiq olaraq 6 milyon və 3 milyon dram rüsum ödəmək məcburiyyətində qalacaqlar. Aksiya iştirakçısı olan Ayk Saakyan bəyan edib: "Bu qərar üzündən ölkəmizdə yoxsulluğun səviyyəsi yüksələcək, lombardlar bağlanacaq, insanlar isə işsiz qalacaq. Əgər işləməsək, bizi kim dolandıracaq? Günbəgün vergi və rüsumları artıran hökumətmi?"

Etirazçılar ümid edirlər ki, Nazirlər Kabineti onların şikayətini eşidəcək və yeni qanun layihəsi qəbul olunmayacaq. Çünki əks təqdirdə paytaxt və ətraf ərazilərdə bu sahədə çalışan və rüsumu ödəyə bilməyən minlərlə insan işsiz qalacaq, nəticədə isə dövlət büdcəsi 900 milyon dramdan çox vergidən məhrum olacaq.

### Avtobus sürücüləri xidmət göstərməkdən imtina ediblər

Ermənistan paytaxtında ictimai nəqliyyatın fəaliyyəti də iflic vəziyyətinə düşüb. Buna səbəb "Avtobus" QSC-nin sürücülərinin etiraz aksiyası keçirməsidir. Etiraz əlaməti olaraq tətilə çıxan 250-dən çox avtobus sürücüsü paytaxt sərnişinlərinə xidmət göstərməkdən imtina ediblər.

Aksiya keçirən sürücülərin sözlərinə görə, əvvəllər gün ərzində sərnişinlərin ödədiyi yol pulları ilə "plan"ı doldurub rəhbərliyə təqdim edirdilər və digər vəsait özlərinə qalırdı. Amma indi rəhbərlik onlara gündəlik cəmi 6-7 min dram təklif edir ki, bu məbləğ də sürücüləri qane etmir. Avtobus sürücülərinin şikayəti həm də hökumətin səhlənkarlığı üzündən günlərlə pulsuz qalmaları ilə bağlıdır. Onların sözlərinə görə, əvvəllər texniki xərclərlə özləri məşğul olurdular və operativ şəkildə məsələ həllini tapdığından avtobusların marşruta buraxılmasında problem yaşanmırdı. Amma indi dövlət texniki məsrəfləri öz üzərinə götürüb və vəziyyət daha da pisləşib.

Etiraz edən sürücülərdən biri bəyan edib: "Yəni əgər hansısa texniki problem varsa, gərək bir neçə gün oturub gözləyək ki, dövlət nə zaman problemi həll edəcək. Bu isə o deməkdir ki, avtobus günlərlə istifadəyə verilməyəcək və biz pulsuz qalacağıq".

Bu günlərdə daha bir qrup vətəndaş Yerevanda Ermənistanın hökumət binası önünə toplaşaraq etiraz aksiyası keçirib. Etirazçılar ötən ilin sonunda dövlət qulluqçularına verilən böyük məbləğdə əlavə pul mükafatlarının Ermənistanın dövlət büdcəsinə geri qaytarılmasını tələb edirlər.

Aksiyaçılar həmçinin bir həftə ərzində 4 min imza topladıqlarını və bu təşəbbüsə qoşulanların sayının durmadan artdığını bildiriblər. Onların sözlərinə görə, dövlət işçilərinə maaşlarından əlavə pul verilməsi korrupsiya əməlidir və bütün vəsaitlər büdcəyə qaytarılmalıdır. Aksiya iştirakçılarından biri qeyd edib: "Biz icazə verməyəcəyik ki, əvvəlki hakimiyyət nümayəndələrinin etdikləri kimi, vəzifəli şəxslər öz burunlarını dövlət büdcəsinə soxsunlar. Bu insanlar əlavə 8-9 milyon dram pul alırlar və deyirlər ki, guya bunu qanuna uyğun olaraq edirlər".

### Meriya binası önündə etiraz

Başqa məlumata görə, Ermənistan vətəndaşı hökumətə etiraz əlaməti olaraq özünün "Niva" markalı avtomobilini paytaxt Yerevanın meriya binası önündə yandırmağa cəhd edib. Narazı sakin maşınını meriya binasının pilləkənləri ilə sürərək əsas giriş qapısının önündə saxlayıb və uzun müddət orada dayanıb. Daha sonra sürücü avtomobilinə benzin tökərək yandırmağa çalışıb, lakin buna müvəffəq olmayıb. Aydın olub ki, vətəndaşın bu addımının səbəbi Yerevan meriyasının onun mağazasını sökmək niyyəti ilə əlaqədardır.

"Qraparak" qəzeti isə yazır ki, Ermənistanda bundan sonra daha çox etiraz aksiyası keçiriləcək. Qeyd olunur ki, Ermənistan İslahatçılar Partiyasının sədri Vahan Babayan martın sonunda "Vədlərinizi yerinə yetirin!" şüarı altında yeni hakimiyyətin əleyhinə etiraz aksiyası keçirməyə hazırlaşır. Bildirilir ki, V.Babayanın partiyası hazırda yeni hökumətin hansı vədlərə əməl edib-etmədiyini aydınlaşdırır, siyahı hazırlayır. Bunda məqsəd yeni hakimiyyətə "güclü və əsaslı zərbə" endirməkdir.

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı heç də sakit günlərin gözləmədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# BEYƏNLXALQ ALƏM

## Yeni Zelandiya məscidlərində qırğın törədildi



Yeni Zelandiyanın Kraystçerç şəhərində iki məsciddə törədilmiş terror aktları nəticəsində 49 nəfər həlak olmuş, 48 nəfər yaralanmışdır. Bu barədə "BBC News" xəbər verir.

Məscidlərdən birinə hücum edən şəxs 28 yaşlı Avstraliya vətəndaşı Brenton Tarrantdır. Cinayətkar adamlara atəş açmış və öz hərəkətlərini "Facebook"da birbaşa yayımlamışdır. Tarrant Əl-Nur məscidinə öz avtomobilində gəlmişdir. Onun maşınında xeyli silah və döyüş sursatı, habelə içərisinə benzin doldurulmuş kanistrlər olmuşdur. Tarrant atəş açdığı silahın üstünə islamofob və antimiqrant sözlər yazmışdır. Adamları güllələdikdən sonra o, hadisə yerindən uzaqlaşmışdır.

Polisdən verilən məlumata görə, cinayətkar Yeni Cənubi Uelsdəki Qrafton rayonunun sakinidir. İkinci məsciddə terror aktı törədənin şəxsiyyəti barədə hələ ki məlumat verilmir.

Yeni Zelandiya hökumətinə başçılıq edən Casinda Ardern bildirmişdir ki, Kraystçerçdə baş vermiş qırğın terror hücumudur.

Son məlumata görə, hadisənin törədilməsində şübhəli bilinən iki kişi və bir qadın həbs edilmişdir.

## ABŞ Venesuelanın daha 340 vətəndaşını vizadan məhrum etdi

ABŞ Dövlət Departamenti Venesuela vətəndaşları üçün tətbiq olunan yeni viza məhdudiyyətləri barədə məlumat vermişdir. Onların arasında Prezident Nikolas Maduronun yaxın adamları var. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Dövlət Departamentinin mətbuat xidməti başçısının müavini Robert Palladinonun dediyinə görə, mart ayında 340 viza ləğv olunacaq. Ötən ilin axırlarından bəri isə 600 nəfərdən çox venesuelalı Amerika vizasından məhrum edilmişdir.

Palladino bildirmişdir ki, bu sənədlərdən 107-si Maduronun sabiq diplomatlarının və onların ailə üzvlərinin vizalarıdır.

## Qəzzədə 100-ə yaxın hədəf hücuma məruz qaldı



Təl-Əvivin raketlərlə atəşə tutulmasına cavab olaraq İsrail hərbçiləri Qəzzə bölməsindəki 100-ə yaxın hədəfi vurmuşlar. Bu barədə TASS agentliyi xəbər verir.

Bildirilir ki, məhv edilmiş obyektlər arasında HƏMAS-ın mənzil-iqamətgahının ofis kompleksi, raket silahının istehsalı üçün yeraltı meydança və bir sıra hərbi obyekt var.

Hadisələr nəticəsində İsraildə və Fələstində zərərçəkənlər barədə məlumat verilmir.

## Nigeriyada neft tankeri bazara girdi

Nigeriyada neft tankerinin bazara girməsi nəticəsində 20 nəfər həlak olmuşdur. Tankerin sürücüsü idarəetməni itirmiş və dəhşətli qəza törətmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, hadisə zamanı bazarda onlarca adam yaralanmışdır.

İnsident Anambra əyalətinin İveka Onitsşa rayonunda baş vermişdir.

Bəzi yaralıların vəziyyəti ağır olduğundan ölənlərin sayı arta bilər.

## Aİ Türkiyədəki suriyalılara 1,5 milyard avro ayıracaq



Avropa İttifaqı (Aİ) Türkiyədə suriyalı qaçqınların dəstəklənməsi proqramının ikinci mərhələsi çərçivəsində nəzərdə tutulmuş 3 milyard avrodan 1,5 milyardını ayıracaq. Bu barədə Brüsseldə keçirilmiş Suriya ilə bağlı donor konfransında Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini məlumat vermişdir. O, Türkiyədə qaçqınların dəstəklənməsi proqramının reallaşdırılmasına Brüsselin sadiqliyini təsdiqləmişdir. Onun dediyinə görə, Suriyada uzun illərdir davam edən münaqişənin yeganə tənzimləmə yolu danışıqlardır. "Hərbi güc münaqişəni həll etməyəcək. Dialoq vacibdir", - deyə Avropa diplomatiyasının başçısı vurğulamışdır.

Mogerini qeyd etmişdir ki, Aİ bu il suriyalılar üçün 560 milyon avro ayırmışdır. Həmin məbləğdə vəsaiti 2020-ci və 2021-ci illərdə də ayırmaq planlaşdırılmışdır.

Proqramın birinci mərhələsi çərçivəsində Brüssel Türkiyədəki qaçqınların ehtiyacları üçün 3 milyard avro ayırmışdır. Bundan sonra proqramın davam etdirilməsi barədə qərar qəbul olunmuşdur.


## Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

### *Distant formada "Tyutor hazırlığı" üzrə sertifikat proqramına sənəd qəbulu elan edir*

Sertifikat proqramının təşkilində məqsəd Azərbaycan Respublikası təhsil qanunvericiliyinin və Bolonya prosesinin tələbləri nəzərə alınmaqla tədris prosesinin hər mərhələsində tələbələrə peşəkar xidmət göstərə biləcək akademik məsləhətçilərin hazırlanmasıdır. Proqram tədris prosesinin bütün mərhələlərini əhatə edir və bu sahədə təcrübəli ekspertlər öz bilik və təcrübələrini təlim iştirakçıları ilə paylaşacaqlar.

Sənəd qəbulu elektron qaydada **http://www.kabinet.unec.edu.az** linkindən qeydiyyatdan keçməklə həyata keçirilir. Namizədlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda proqramda iştirak etmək hüququ qazanırlar.

Proqram **15.04.2019-cu il** tarixdən başlayaraq 3 ay müddətinə təşkil olunacaqdır. Təlimlər işdən ayrılmadan distant formada təşkil ediləcək və ödənişlidir. Proqramı müvəffəqiyyətlə bitirən iştirakçılar topladıqları bala uyğun sertifikatla təmin olunacaqlar.

Sənədlərin qəbulu 2019-cu il martın 15-dən aprelin 12-dək aparılacaq.

**Sertifikat proqramında iştirak etmək istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:**

- *rektorun adına ərizə;*
- *ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);*
- *iş yerindən arayış və ya əmək kitabçasından çıxarış (işlədiyi halda);*
- *3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
- *şəxsiyyət vəsiqəsinin surəti.*

**Ünvan: İstiqlaliyyət küçəsi, 6, otaq 310**
**Tel.: (012) 492-59-25**
**E-mail: kamina.cabrayılova@unec.edu.az**



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

### *açıq tenderə dəvət edir*

**Özünəməşğulluq tədbirlərinin təşkili çərçivəsində respublikanın rayonları üzrə əhalinin özünəməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satın alınması** ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti açıq tenderə dəvət edir.

Tender 1 LOT üzrə keçirilir:

**- Özünəməşğulluq tədbirlərinin təşkili çərçivəsində respublikanın rayonları üzrə əhalinin özünəməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Cavadov Mövlud; (012) 596-35-26) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 3000 (üç min) manat.**
**Satın alan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESAB: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **26 aprel 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **06 may 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 may 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


## Bayram günlərində istehlakçılar fasiləsiz elektrik enerjisi ilə təmin olunacaq

"Azərişıq" ASC-nin mətbuat xidmətindən aldığımız məlumata görə, Novruz bayramı və qeyri-iş günlərində enerji istehlakçılarının, habelə bayram tədbirlərinin keçirildiyi yerlərin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması məqsədilə Bakı şəhərində və regionlarda təşkilati və texniki tədbirlər görülərək mart ayının 19-dan 27-ə kimi ASC-nin Mərkəzi Aparatı və RETSİ-lər üzrə məsul vəzifəli şəxslərdən ibarət növbətçilik təşkil edilib.

Bayram günlərində enerji istehlakçılarının, bayram tədbirlərinin keçiriləcəyi yerlərin fasiləsiz elektrik enerjisi ilə təchiz olunmasını, habelə baş verə biləcək hər hansı qəza hadisəsinin qarşısının alınması üçün zəruri tədbirlər görülüb, elektrik şəbəkəsinin normal rejiminin təmin olunması məqsədilə RETSİ-lər üzrə təşkil edilmiş növbətçilik üzərində nəzarət gücləndirilib.

Texniki direktorluğa tabe olan xidmət sahələrində və avtonəqliyyat idarəsində növbətçilik təşkil edilərək, zəruri olan mal-materialların ehtiyatı yaradılacaq. Baş vermiş qəzaların nəticələrinin aradan qaldırılması halları istisna olmaqla, bayram günlərində tədbirlərin keçirildiyi yerlərdə aparılması planlaşdırılan yenidənqurma və əsaslı təmir-tikinti işləri müvəqqəti olaraq dayandırılacaq.

***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Kəngərli, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

### *DÜZƏLİŞ*

Ağcabədi Rayon Kommunal Xidməti və Mənzil İstismarı İdarəsinin 1 mart 2019-cu il tarixdə dərc olunmuş açıq tender elanı 1 LOT üzrə keçiriləcəkdir. LOT -1 Mənzil fondunun əsaslı təmiri.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri Firudin Hacıyev ailəsi ilə birlikdə

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8566
Sifariş 895
Qiyməti 40 qəpik